

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## XİN: "Ermənistan bu hesabata görə yüz minlərlə ABŞ dolları xərcləyib"



5

## Böyük Qayıdış strategiyası: Füzuliyə yol alan köç karvanları

Füzuli şəhərində 2379 nəfərin daimi məskunlaşması təmin edilib




2

SƏS

№ 053 (6978)

28 mart 2024-cü il.
Qiyməti 60 qəpik

# Qafqazdan qan iyi gəlir



5

## 8 kəndin taleyi: itirilənlər geri qaytarılır




9

## Düşmən dəyirmanına su tökən XƏYANƏTKAR




10

## İqtisadi sərvət: susuz dünya kimə lazımdır?



15

## 31 mart 1918-ci il soyqırımı gerçəkləri




11

## Ərini baltalayan qadın məhkəmə zalında həbs edildi



16




# Böyük Qayıdış strategiyası:
# **Füzuliyə yol alan köç karvanları**

*Füzuli şəhərində 2379 nəfərin daimi məskunlaşması təmin edilib*

"Mənim yadımdadır, füzulililərlə və digər rayonlardan olan keçmiş köçkünlərlə çoxsaylı görüşlərimdə, xüsusilə yeni şəhərciklərin açılışı tədbirlərində deyirdim ki, bu, müvəqqəti yaşayış yeridir. Biz çalışırıq və çalışacağıq ki, sizin yaşayış səviyyənizi yaxşılaşdıraq, həyatınızı müəyyən dərəcədə yüngülləşdirək, ancaq bu, müvəqqəti yaşayış yeridir. Torpaqlar azad olunandan sonra Füzulidə, Ağdamda, Zəngilanda, Qubadlıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Şuşada daha gözəl evlər tikiləcək, daha gözəl şərait yaradılacaq. Bax, bu gün gəldi, artıq bu, gerçəkdir, bu, reallıqdır". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirib. Həmin gün yetişdi. Zəfər qazanan Azərbaycan Qarabağımızda, Şərqi Zəngəzurda böyük quruculuq işlərini davam etdirir. Şuşada, Zəngilanda, Laçında və digər ərazilərdə aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri işğaldan azad olunan hər bir şəhər, qəsəbə və kəndi müasir məkana çevrilir. Yeni reallıqların müəllifi olan Azərbaycanda tamamilə yeni bir dövr yaşanılır və bu torpaqların əzəli sakinlərinin işğaldan azad edilmiş torpaqlara mərhələ-mərhələ qayıdışı böyük canlanmaya səbəb olub.

Artıq indiyədək Füzuli şəhərinə 631 ailənin, yəni 2379 nəfərin daimi məskunlaşması təmin edilib. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı martın 27-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb.Bu mərhələdə Füzuli şəhərinə daha 35 ailə - 134 nəfər köçürülüb.

Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb.

## QƏLƏBƏ GÜNÜNDƏN 8 GÜN SONRA

Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk karvanı idisə, bu gün artıq bu istiqamətdə aparılan işlərin məntiqi olaraq köç karvanları digər ərazilərimizə mərhələli olaraq da yol alırlar. Ağalı, Talış kəndi, sonra isə Laçın, Füzuli. Son iki yüz ildə xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı Zəfər qədər möhtəşəm qələbə yoxdur. Qazandığımız bu Zəfərdən üç ildən artıq bir zaman ötsə də görülən işlərin miqyası əhatəli və çoxşaxəlidir. "Bu gün artıq biz quruculuq işlərinə başlamışıq. Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra artıq bu yerdən - Alxanlı qəsəbəsindən Füzuli-Şuşa avtomobil yolu çəkilir. Bu yol çox rahat və geniş olacaq. Bu yol imkan verəcək ki, Şuşaya rahat gedib-gələ bilək " -deyən Prezident qısa bir müddət ərzində böyük quruculuq işlərinə imza atmış oldu. "Bizim ölkəmiz üçün yeni dövr başlayır",- deyən dövlət başçısı bildirib: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".





Artıq əzəli sakinlər, doğma yurdla görüşürlər. Əlbəttə ki, bu gün Zəfər qazanmış xalq olaraq bu torpağa ayaq basır. Erməniyə dərs verən və ona kimliyini göstərən Qalib Xalq kimi. Bu Qələbə əlbəttə ki, Azərbaycanın iqtisadi gücünün, dinamik inkişafının göstəriciləri sırasındadır. İşğaldan azad edilmiş bütün ərazilərimizdə abadlıq-quruculuq işləri sürətlə davam etdirilir.

Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır. Müharibədən ötən müddət ərzində görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində keçmiş məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmalarına imkan yaranıb.

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR CƏNNƏTƏ ÇEVRİLİR

Bu gün işğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür. Azərbaycan Prezidenti İlham Əliyevin həmin ərazilərə səfər etməsi və bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi görülən işlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasından xəbər verir.

Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin daha da vüsət almasına böyük təkan verir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Daha sonra isə digər ərzizilərimizə qayıdış oldu. Bir çox kəndlərdə artıq inşaat işlərinə başlanılıb.

*Ardı Səh. 3*

# Böyük Qayıdış strategiyası:
# Füzuliyə yol alan köç karvanları

*Füzuli şəhərində 2379 nəfərin daimi məskunlaşması təmin edilib*

Əvvəli Səh. 2

Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda çoxmərtəbəli evlərin tikintisinə də start verilib. Qarabağ və Şərqi Zəngəzur bu gün böyük tikinti meydançasına çevrilmişdir. 6 minə yaxın keçmiş köçkün öz doğma torpaqlarına qayıtmışdır.



### Bu İL XOCALI VƏ XANKƏNDİ SAKİNLƏRİ DOĞMA YURDLARINA QAYIDACAQLAR

Cənab Prezidentin bildirdiyi kimi, 2024-cü ildə bir neçə yaşayış məntəqəsinə keçmiş köçkünlər, qaçqınlar qayıdacaqlar: "İl ərzində Kərkicahan, Malıbəyli, Turşsu kəndləri tam bərpa edilib keçmiş köçkünlərin sərəncamına veriləcək. Eyni zamanda, il ərzində Xocalı və Xankəndi sakinləri də öz evlərinə qayıdacaqlar. Bundan başqa, bir neçə yaşayış məntəqəsi də keçmiş köçkünləri qəbul etməyə hazır olacaq. Biz - bu torpaqların sahibləri qurub-yaradanıq. Biz qurub-yaradan xalqıq"- deyə Prezident bildirib.Güclü iqtisadi inkişafa sahib olan Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq yeni şəhər və kəndlər salır. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard, 2022-ci ildə isə 2.2 milyard ABŞ dolları məbləğində vəsait ayrılıb. Laçında, Füzulidə və digər ərazilərdə görülən işlər, Füzuli Beynəlxalq Hava Limanın cəmi səkkiz ay ərzində tikilib istifadəyə verilməsi, Zəngilan Beynəlxalq Hava Limanını açılışı və s. işlərin uğurla davam etdiyini göstərir. 2025-ci ildə isə Laçında Beynəlxalq Hava Limanını istifadəyə verilməsi nəzərdə tutulur. Bərdə-Ağdam dəmir yolu isə cari ildə istifadəyə veriləcək. Xəstəxanalar, məktəblər, yaşayış binaları inşa edilir. 10-dan çox kəndin Baş planı təsdiqlənib və bir neçə kəndin təməli Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Görülən işlər Baş planlar əsasında həyata keçirilir.









Bu gün ölkəmizin qarşında duran əsas vəzifələrdən biri işğaldan azad edilmiş torpaqlarımızın bərpası, inkişafıdır."Bizim əsas dövlət xərclərimiz azad edilmiş Qarabağa və Şərqi Zəngəzura yönləndiriləcək. Birincisi, ona görə ki, biz keçmiş məcburi köçkünləri mümkün qədər tez yerləşdirməliyik. 2026-cı ilin sonunadək biz 140 min insanı yerləşdirməyi planlaşdırırıq. Bunun üçün isə biz infrastruktura, yaşayış yerlərinin inşasına və sosial infrastruktura böyük vəsait yatırmalıyıq. Bununla yanaşı, 30 il işğal altında olmuş bu ərazilərin kənd təsərrüfatı, hidroelektrik enerjisi, günəş və külək enerjisi, turizm kimi sahələrdə böyük potensialı var. Bu, dövlət investisiya proqramının əsas sahəsi olacaq", - deyə Prezident İlham Əliyev bildirib.

Bildiyimiz kimi, azad olunmuş Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilmişdir. Bu və ya digər layihələr çox böyük perspektivə malikdir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası nəticəsində nəzərdə tutulan hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək ərazilərdə görüləcək işlər əhalinin təhlükəsizliyinin təmin olunmasına, eləcə də etibarlı, keyfiyyətli və dayanıqlı infrastrukturla təminatın həyata keçirilməsinə su, qaz, elektrik, istilik və s. infrastrukturun yenidən qurulmasına və s. yönəldilib.

Beləliklə, qısa bir zamanda Füzuli şəhərində reallaşan infrastruktur layihələri, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha nümayiş etdirir.

Azərbaycanın iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verir.

***Zümrüd BAYRAMOVA***

# Erməni təəssübkeşliyinin TƏHLÜKƏLİ YALTAQLIQ HƏDDİ

***Rusiyanın paytaxtı Moskvada baş verən terror hadisəsi dünyanın gündəmini məşğul edib. Son günlər bu qorxunc olay barədə müxtəlif fikirlər səsləndirilir. Terrorun təşkilatçıları barədə müxtəlif versiyalar irəli sürülür. Lakin, üstündən günlər keçməsinə baxmayaraq, "Krokus Siti Holl" teraktının kimlər, hansı təşkilatlar, hansı qüvvələr tərəfindən törədildiyi haqda konkret məlumat yoxdur. Bu da hadisə ətrafında sirr pərdəsini getdikcə böyüdür və bir çoxlarının bundan istifadə etməsinə geniş spektrda imkan və şans yaradır.***



"Krokus Siti Holl"da dəhşətli terror aktı ilə bəlli oldu ki, Rusiyanın düşmənləri təkcə sərhədlərindən kənarda yox, öz daxilində də var. Əvvəla, ölkə daxilində belə bir terakt hadisəsinin heç bir maneə ilə üzləşmədən törədilməsi, buna maraqlı qüvvələrin olması ortaya çıxardı. Digər tərəfdən də axı Rusiya efirlərinin "ideoloqu" kimi tanınan və eyni zamanda da təqdim edilən Vladimir Solovyov öz təxribatçı fikirləri ilə göstərdi ki, daxildə də onun kimi düşmənlər var və onlar rus xalqını, Rusiyanı qonşu dövlətlərlə xoşagəlməz münasibətlərə sürükləmək istəyirlər. Hər halda, məhz rus xalqı, Rusiya hökuməti də bu barədə düşünməlidir. Çünki belə təxribatçılıq yaxşı heç nə vəd etmir.

Solovyov terror aktında şübhəli bilinən şəxslərin hansınınsa soyadında guya "oğlu" sözünün olduğuna istinad edərək, onun azərbaycanlı olması ehtimalını irəli sürür. O, məhz həmin sözün olduğuna diqqəti cəlb edərək, baş verən teraktla Azərbaycan arasında əlaqələrin olmasına ehyam vurur. Bu, baş verən terrorun "izi" ilə bağlı axtarış məsələlərinə də mənfi təsir edən məqamdır. İstənilən halda, terror aktı ilə bağlı əsil həqiqətlərin üzə çıxmasında həm Rusiya dövləti, həm də rus xalqı maraqlıdır. Belə görünür ki, Solovyov buna mane olmaqla, Rusiyanın özünə qarşı da düzgün olmayan mövqedən çıxış edir və yəqin ki, Kremlin özündə belə bütün bunlar kifayət qədər suallar ortaya çıxarır.

Sözsüz ki, Vladimir Solovyovun "Krokus Siti Holl" terrorunda Azərbaycan izlərini axtarmaq cəhdi onun ermənipərəstliyindən, erməni təəssübkeşliyindən qaynaqlanır. Onu da bilirik ki, "Sputnik" agentliyinin rəhbəri Marqarita Simonyanın da Azərbaycana qarşı informasiya təxribatı apardığı və bu qrupun Rusiya mediasında kök salan erməni lobbisinin sifarişlərini yerinə yetirməsi fonunda Vladimir Solovyovun məlum təxribatçı cəhdlərini, etdiklərini başa düşmək çətin deyil. Amma hələ də başa düşülməyən məqamlar da var və ümid edirik ki, yaxın zamanlarda bunlara bir aydınlıq gətiriləcək.

Əlbəttə ki, Solovyov və Simonyan məhz erməni lobbisinin Azərbaycana qarşı sifarişini yerinə yetirirlərsə və bu cür hallar dayanmadan təkrarlanırsa, ən azından onlara bununla bağlı xəbərdarlıq da olsa edilməli idi. Dövlət səviyyəsində edilməsə də, heç olmasa onları bu vəzifələrə təyin edənlər tərəfindən xəbərdarlıq edilməli idi. Əgər edilməyibsə, deməli, müəmmalı məqamlar kifayət qədər çoxdur. Kreml Azərbaycanı strateji tərəfdaş adlandırdığı halda, Solovyovun və ya onun kimi bir başqasının belə sayıqlamalarına ən azından reaksiya olmalıydı. Reaksiya belə bildirilməyibsə, deməli, ya Kreml mediadakı ruporlarına nəzarət edə bilmir, ya da bunu etmək istəmir və bunun da səbəbinin "yuxarıdan gələn tapşırıq" olacağı istisna edilmir. Bəlkə də tapşırığa əsasən, Azərbaycanın məhz terrorla əlaqəli olduğu media tərəfindən təqdim edilməli imiş deyə, Solovyov çəkinmədən belə bir hədsizlik edərək, "Krokus Siti Holl" terrorunda Azərbaycan izləri axtarır. Amma bununla bağlı konkret fikir də səsləndirmək çətindir.

Yeri gəlmişkən, o da ola bilər ki, Solovyovun "Krokus Siti Holl"dakı terror aktında "azərbaycanlı izi" axtarması onun öz şəxsi ambisiyaları və Azərbaycana qarşı dost olmayan mövqedə olmasından irəli gəlir. Onun Azərbaycana münasibəti bizə çox yaxşı bəllidir. Hətta hər fürsətdən ölkəmiz əleyhinə istifadə etmək cəhdləri də göz önündədir. Bu vaxta qədər ölkəmiz əleyhinə mövqe sərgilədiyi heç kim üçün sirr deyil. Hər imkan düşdüyündə ermənilərə yaltaqlanmaq üçün, erməni lobbisinin, erməni şəbəkəsinin dəyirmanına su tökmək üçün min bir oyundan çıxan Solovyovi indi tanımırıq, bizə bu ermənipərəst çoxdan tanışdır. Hər dəfə efirdə gedən diskusiyalar, polemikalar zamanı haylar üçün dəridən-qabıqdan çıxdığını çox görmüşük. Hətta həmin polemikalar, diskusiyalar zamanı erməni maraqları naminə qarşı tərəflə mübahisələrə də girdiyinin dəfələrlə şahidi olmuşuq. Məsələ burasındadır ki, indi Solovyovun erməniprəstliyi və yaltaqlığı təhlükəli nəticələr vəd edir. Çünki bu, iki ölkə arasında, iki qonşu dövlət, qonşu xalq arasında nifaq yarada biləcək bir təhlükəli yaltaqlıq həddidir ki, bunu Solovyov özünə də, təmsil etdiyi xalqa da rəva bilir. Məhz bu baxımdan da rus xalqı onun məhz yaltaqlanmaq naminə nə dərəcədə təhlükəli yollara baş vurduğunu həm yaxşıca araşdırmalı, həm də məhz onun özündən bununla bağlı hesab da sormalıdır.

Bir məqam da diqqətdən yayınan deyil ki, həmin o sözügedən terror hadisəsi zamanı terrorçuların erməni dilində söyüş söydüyü ilə bağlı məlumatlar da yayılıb. Yəni, belə çıxır ki, həmin terror hücumundan ermənilərin iştirakı haqda fikirlər də mövcuddur. Deməli, ermənilər özləri öz adlarının bu məsələdə "hallanmaması" üçün diqqəti yayındırmağa çalışırlar və bu məqamda onların məhz Solovyov kimi erməniprəsti ortaya atıb onun dilindən Azərbaycanı hədəf seçmək ideyası haylar üçün "göydəndüşmə" bir fürsət hesab olunur. Daha dəqiq desək, çox güman ki, erməni şəbəkəsi bu informasiyaları arxa plana keçirmək və diqqəti ermənilərdən yayındırmaq məqsədilə Solovyovdan "azərbaycanlıların hədəf göstərilməsini" istəyib. Solovyov da bir marionet kimi əmrə müntəzir olub və Simonyandan da, istənilən ermənidən də betər erməniısifət olduğunu sübut edə bilib. Ələlxüsus da Bakı-Moskva xəttində çatların yaradılması üçün erməni şəbəkəsinin bu fürsətdən istifadə etməsi fonunda Solovyov da öz "xidmətini" göstərib və erməni şəbəkəsinə alət olaraq çıxış etməyi özünə rəva bilib. Bakıda həbsdə olan separatçı David Babayanı efirə çıxardığı üçün Azərbaycandan üzr istəyən Solovyov deyəsən Azərbaycandan növbəti dəfə üzr istəmək həvəsinə düşüb, çünki onun təxribatçı sayıqlamalarına görə üzr istəməsi belə azdır. İndi onun etdikləri yaltaqlıq həddini aşıb keçən məsələdir, çünki çox təhlükəli addımdır. Hər halda, ona lazımı cavab verilməsi, bizim Mətbuat Şurasının bəyanatı Solovyova bir ilk "şapalaq" kimi diqqəti cəlb edir. Bəyanatda onun cəmiyyəti yanlış yönləndirməkdə günahlandırılması hər halda, təkcə özü üçün yox, elə rus xalqı üçün də bir mesaj sayıla bilər. Çünki həqiqətən də cəmiyyəti yanlış istiqamətə yönləndirmək, bunun da ağır nəticələrini nəzərə almamaq, çox təhlükəli bir addımdır ki, Solovyov bu addımı da atdı.

Məsələ burasındadır ki, teraktın azərbaycanlı iş adamı Araz Ağalarova məxsus "Krokus Siti Holl"da baş verməsini də təsadüf hesab etməyənlər var. Hətta bu məqamdan istifadə edərək, Azərbaycanı hədəf etmək niyyəti də göz önündədir. Azərbaycana qarşı olan qrupların Rusiya daxilində fəallaşması da diqqətdən yayınmır. Teleaparıcı, jurnalist Vladimir Slovyov da bu məqamdan sui-istifadə edərək, Azərbaycana və azərbaycanlılara qarşı nəinki antipatiyasını, nifrətini belə gizlətmir. Beləliklə də, fürsətdən istifadə edərək, utanmadan, həya etmədən hay dəyirmanına su tökmək, terror aktında Azərbaycan izini axtarmaq kimi axmaq bir həvəsə düşüb ki, bəlkə də təhlükəsini hələ də dərk edə bilmir. Sözsüz ki, onun apardığı çirkin kampaniyada erməni barmağının olması artıq isbata ehtiyac duyulmayan bir aksiomdur. Onun şər ortaqları erməni əsillilər - rusiyalı jurnalist Marqarita Simonyanla və media maqnatı Aram Qabrielyanovla "işbirliyi" hər kəsə yaxşı məlumdur. O da məlumdur ki, bu üçlük hər fürsətdə Azərbaycanı hədəf göstərir və erməni mafiyasının diqtəsi ilə Azərbaycan-Rusiya münasibətlərini zədələməyə çalışır. Bax elə ən təhlükəli məqam da bundan ibarətdir və yəqin ki, Rusiya hökuməti, eləcə də rus qalqı bununla bağlı Solovyovu cəzalandıra bilər.

Erməni lobbisinin sifarişi ilə dövriyyəyə buraxılan bu feyk informasiyaların hansı mənfi nəticələrə səbəb ola biləcəyini dərk etmək çətin deyil. İndi terror aktı ilə bağlı əsil reallığı öyrənmək istəyən Rusiya üçün, rus xalqı üçün Solovyovun yaltaqlıq etmək naminə sayıqlamaları ictimai rəyi çaşdıra bilər və diqqəti həqiqətlərdən də yayındırar. Heç də təəccüblü deyil ki, Solovyovun belə məsələlərə burnunu soxaraq, məsuliyyətsiz fikirlər səsləndirməsi, haylara yedilmək üçün yaltaqlıq etmək naminə başından böyük rəy bildirməsi terror aktı ilə bağlı aparılan istintaqa da təzyiq kimi görünə bilər və "iz azdırmaq" təşəbbüsü kimi qiymətləndirilər. Yəqin ki, bu zaman onun işi heç də yaxşı olmaz və bu dəfə üzr istəməklə canını qurtara bilməz. Çünki, əslində Rusiya dövləti belə iddiaların irəli sürülməsinə daha həssas yanaşmalıdır və Bakı-Moskva münasibətlərinin pozulması məqsədi ilə artıq "neçənci dəfədir" təxribat törədən Solovyova yerini göstərməlidir. Əgər onun yaltaqlıq etməsində təhlükəni düzgün dəyərləndirmiş olsalar, ruslar onu ciddi şəkildə cəzalandırarlar da. Solovyovun özü isə, nə qədər ki, gec deyil, iddialarını geri götürməli və Azərbaycandan bur daha üzr istəməlidir. Onsuz da o buna öyrəncəlidir və bu dəfəki üzr istəmə onun birinci dəfəsi sayılmır. Bələki, 2022-ci ildə Qarabağdakı separatçıları efirinə çıxardığına görə, eləcə də Azərbaycanın suverenliyinə qarşı addım atdığına görə iki dəfə üzr istəyən biri üçün bu dəfə də üzr istəmək bir çətinlik yaratmaz. Amma bir şeyi unutmaq lazım deyil ki, dəfələrlə öz uzr istəmələri ilə yalanlarını ifşa edən Solovyov bu dəfə də özünü ifşa etmətə məhkümdur, çünki əks halda bu yalan, bu təhlükəli yaltaqlıq ona daha baha başa gələ bilər.

***İnam Hacıyev***

# Qafqazdan qan iyi gəlir



**Yazının başlığını təsadüfi seçməmişik. Bəli, Qafqazın hərbi-siyasi durumuna yaxından baxsaq müharibələrdən çıxmış, lakin hələ də özünə gəlməmiş regionu yeni müharibələrin gözlədiyini açıq gözlə görə bilərik. Soruşa bilərsiniz ki, Gürcüstan 2008-ci il Cənubi Osetiya hadisələri ilə başlanan və Abxaziyanın da itirilməsi ilə sonuclanan müharibədən sonra öz daxili problemləri ilə baş-başa qalıb, gah Rusiyaya "buynuz" göstərir, gah da Qərbdən "çətir" istəyir.**

44 günlük müharibədə alacağını alan İrəvandan fərqli olaraq Bakı qalib ölkə kimi yeni layihələr üzərində işləyir. Suveren hüquqlarını bütün ərazilərində bərpa edən Azərbaycan məcburi köçkünlərini öz doğma yurduna qaytarmaq üçün quruculuq işləri ilə məşğuldur. Ermənistanla müharibə bitər-bitməz sülh



müqaviləsi imzalamaq üzərində 5 baza prinsipi üzərində iş aparır. Həmin sənəd beynəlxalq hüquqa söykəndiyindən Ermənistanın bundan imtina etməsi üçün heç bir səbəb yoxdur.

Ermənistana gəlincə, bu ölkə 30 il ərzində Azərbaycana qarşı etdiyi beynəlxalq səviyyəli cinayətlərinin bədəlini ödəməkdədir. Torpaqlarımızdan qovulan işğalçı ordunun tör-töküntüləri Qarabağdan çıxarılandan sonra bu vəziyyətlə barışanlar olsa da, revanşistlərin də olduğuna dair xəbərlər gəlir. Məsələ burasındadır ki, həm reallığı qəbul edən ermənilərə qarşı Qərbin, həm də yeni müharibə alovunu yandırmağa hazırlaşanlara qarşı Rusiyanın təhdidləri var. Qərb və Rusiya Ermənistanda nəzarəti bundan sonra təmin etmək üçün açıq mübarizəyə başlayıblar. Məsələnin kulminasiya nöqtəsi də budur. Müharibə tərəfləri reallığı qəbul edib sülh danışıqlarına başlamaq niyyətlərini ortaya qoyan gündən bu günə qədər işğalçı Ermənistanın arxasında duran güclər yeni oyunlar qurmağa, yeni müharibə tərtib etməyə qərar veriblər.

Qərbin yeganə niyyəti Rusiyanı regiondan vurub çıxarmaqdır. Düşünürlər ki, uzun illər Rusiyanın təsiri altında olan ölkələri, yəni keçmiş sovet respublikaları Moskvadan qurtulmaq istəyi onların işinə yarayacaq, eyni zamanda prosesi bir az da sürətləndirəcək. Amma unudurlar ki, Azərbaycan kimi digər "sovet respublikaları" Rusiyanı Qərbə dəyişmək üçün müstəqil olmayıblar. "Ağa-qul" düşüncəsi ilə yaşayan Qərb ölkələri Cənubi Qafqazı ələ keçirmək üçün bu dəfə ən zəif bəndi -Ermənistan üzərində plan qururlar. Bu yanaşma ilk növbədə sülh müzakirələrinin gedişatına zərbə vurur, prosesi zəiflədir. Eyni zamanda Ermənistanı fərqli bəhanələr uydurmağa kökləyir.

Digər tərəfdən Qərb ölkələri Rusiyanın başının Ukrayna savaşına qarışmasından istifadə edərək Cənubi Qafqazda yerləşmək istəyinə Moskvanın qarşılıq verəcəyi aksiomadır. Unutmaq lazım deyil ki, Rusiyanın Ermənistanla 102-ci bazanın 2049-cu ilə qədər bu ölkənin ərazisində qalacağına dair müqaviləsi var. Bu müqavilədən birtərəfli qaydada imtina İrəvanın görmək istəmədiyi fəsadlara yol aça bilər. Qərb isə Ermənistana Rusiyadan yaxşı heç nə vəd etmir, yalnız quru söz. Bir sözlə, Qərbin hələlik "mülkü müşahidəçi" statusunda Ermənistana yerləşdirdiyi missionerlər əyinlərinə hərbi mundir geydikləri dəqiqədən rus hərbiçilərinin hədəfinə çevriləcəklərini hər kəs bilir. Ona görə də ehtiyatla tərpənirlər...

Bəs İrəvandakılar nə düşünür?

Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, hazırda tarixi Ermənistandan real Ermənistana ağrılı keçid gedir. "Bu proses bizim tarixi məsuliyyətimizdir və biz bununla üzləşməli, bu prosesə münasibət bildirməliyik", - o, Gümrüdə Mülki Müqavilə Partiyasının təşəbbüs qrupunun iclasında deyib. Baş nazirin sözlərinə görə, bu prosesə iki yanaşma var. "Yanışmalardan biri belədir - biz hər cür şəkildə tarixi Ermənistandan reallığa keçidin əleyhinəyik, bunun qeyri-mümkün və qəbuledilməz olduğunu deyirik, ikinci yanaşma isə odur ki, tarixi Ermənistandan keçidi tarixi zərurət hesab edirik. Ermənistanı reallaşdırmaq, Ermənistan Respublikasını bizim hökumətimizin məsuliyyət sahəsi kimi təsbit etmək, real Ermənistanın təhlükəsizliyini, rifahını, iqtisadi inkişafını və xoşbəxtliyini təmin etməkdir. Mənim qavrayışım və qiymətləndirməm ondan ibarətdir ki, biz bu yolla getməliyik".

Paşinyan bəyan edib ki, hakim partiyanın missiyası uzunmüddətli və institusional inkişafı üçün dövlətin və xalqın tarixi Ermənistandan həqiqi Ermənistana keçidinə rəhbərlik etmək və təmin etməkdir. "Əgər biz bu seçimi etməsək və hərəkətlərimizin motivi tarixi Ermənistandırsa, qorxuram ki, real Ermənistanın da tarixə çevriləcəyini ehtimal edəcəyik".

Fransanın baş naziri Qabriel Attal Rusiyanı "Ermənistanı sülh arzusuna və öz suverenliyinə hörmətə, Moskvanın



Ukraynada məhəl qoymadığı prinsiplərə görə cəzalandırmaq istəməkdə" ittiham edib. "Le Figaro" bu haqda yazır ki, bu, yalançı damğası vurulmadan inkar edilə bilməyən bir həqiqətdir. Üstəlik, Rusiyanın özü də bunu xüsusilə inkar etmir. "Rusiya Ermənistanı cəzalandırmaq istəyir, çünki o, Beynəlxalq Cinayət Məhkəməsinə qoşulmaqla cəzasızlıqla mübarizə yolunu seçib, Ermənistan isə sadəcə olaraq demokratiya və qanunun aliliyi yolunu seçib", - Fransa hökumətinin başçısı bildirib. Və onun sözlərini dəstəkləmək üçün rusların çoxlu sayda anti-erməni çıxışlarını göstərmək olar.

Rusiyanın BMT Təhlükəsizlik Şurasında Daimi Nümayəndəsinin birinci müavini Dmitri Polyanski martın 12-də keçirilən iclasında bildirib ki, Aİ-nin Ermənistan, Moldova və hətta Afrika da daxil olmaqla hər yerdə tətbiq etdiyi "anti-Rusiya siyasi optikası"na görə, təkcə Ukrayna deyil, digər ölkələr də yüz minlərlə insan bunun bədəlini öz həyatları ilə ödəyir", - bildirib. Rusiyanın xarici işlər naziri Sergey Lavrov da iddia edib ki, "Ermənistanın NATO ilə dialoqunun dərinləşməsi Ermənistanın müdafiə suverenliyini itirməsinə gətirib çıxarır". Ermənilər isə bunu şantaj, hədə adlandırırlar. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun da mütəmadi olaraq eyni şəkildə günah etdiyini düşünürlər. Rusiya Xarici İşlər Nazirliyinin mətbuat aludəçisi Mariya Zaxarova haqqında isə "danışmağa dəyməz" ifadəsini işlədirlər: "O, Azərbaycanın müdafiəsi üçün öz sözünü deməyə hazır olduğunu çoxdan və aydın şəkildə nümayiş etdirib. O, kobudluğuna gülünc bəhanələr uyduraraq Azərbaycandan broş-hədiyyə taxmaqdan utanmır. O, rəsmi Bakının müdafiəsində "arqumentlər" səsləndirməkdə müntəzəm olaraq Azərbaycan Xarici İşlər Nazirliyini qabaqlayır. Azərbaycan və Rusiyanın bir çox məsələlərdə mövqelərinin oxşarlığı, ilk növbədə, ermənifobiya məsələsinə və demokratik dəyərlərə etinasızlıq çoxdan özünü büruzə verir.

Azərbaycan Xarici İşlər Nazirliyinin Fransanın baş nazirinə qarşı bəyanatından narahat olan ermənilər Bakı ilə Moskvanın bu məsələdə sinxron addım atdıqlarını düşünürlər. Onlar "Fransanın baş naziri Azərbaycandan yalnız bir şey tələb edir - silahlı qüvvələri Ermənistanın ərazilərindən çıxarmaq" kimi yalanlar tirajlamaqla münasibətlərdə inamsızlıq mühiti formalaşdırırlar. Bu isə sülhə kökündən zərbə vurur. ƏslindəŞ Fransaya da bu lazımdır.

Lakin Azərbaycan heç nəyi işğal etmədiyini qeyd edir, hər şeyin aşkar olmasını istəyir. Ermənistanın hamıya məlum olan aşkar və primitiv yalanları regionu barıt çəlləyinə çevirir. Fransa tarix boyu proksi müharibələrə alışıb, Ermənistanın timsalında oyuncaq və qondarma dövlət tapmaq və bütün planlarının onun üzərindən həyata keçirmək Parisin çoxdankı arzusudur. Ermənilər Qərbin Rusiyaya münasibətində olduğu kimi, Azərbaycana münasibətində də eyni mövqenin olduğunu görmək istəyirlər. Azərbaycana qarşı heç bir sanksiya tətbiq olunmadığını, əksinə, Ursula fon der Leyenin və Şarl Mişelin İlham Əliyevi yenidən prezident seçilməsi münasibətilə təbrik etmələrini sindirə bilmirlər. Böyük Britaniyanın baş naziri Rişi Sunakı da eyni mövqeyinə görə günahkar bilirlər. O, bu yaxınlarda iki dəfə Azərbaycan rəhbərinə təbrik məktubu yazıb.

Bəli, Ermənistan və ermənilər onları dəstəkləməyən, günahlarına şərik çıxmayan, yalanlarına züy tutmayan kim varsa hamısını günahlandırmaqdadırlar. Belə çıxır ki, bir günahsız Ermənistandır, həm də 30 il qonşu ölkənin 20 faiz suveren ərazilərini işğalda saxlayan, bir milyona yazın vətəndaşını məcburi köçkün vəziyyətinə salan Ermənistan...

***V.VƏLİYEV***

## XİN: "Ermənistan bu hesabata görə yüz minlərlə ABŞ dolları xərcləyib"

Danimarkanın keçmiş Baş naziri, habelə NATO-nun keçmiş Baş katibi olmuş Anders Foq Rasmussenin rəhbərlik etdiyi "Ermənistanın Dostları Şəbəkəsi" adlı qrup tərəfindən hazırlanmış 2024-cü il 21 mart tarixli "Avropa İttifaqı-Ermənistan münasibətlərinin dərinləşməsi: Ermənistanda daha çox Avropa; Avropada daha çox Ermənistan" adlı hesabatda yer alan Azərbaycan əleyhinə əsassız iddiaları qətiyyətlə pisləyir və rədd edirik.



Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Ayxan Hacızadənin Anders Foq Rasmussenin rəhbərlik etdiyi qrupun hesabatına dair şərhində yer alıb.

A.Hacızadə qeyd edib ki, hesabatda bütün faktların təhrif olunduğu, böhtan xarakterli və tamamilə əsassız müddəalar Azərbaycan əleyhinə aparılan qarayaxma kampaniyasının tərkib hissəsidir. Bu müddəalar, Ermənistanla Avropa İttifaqı arasında münasibətlərin dərinləşdirilməsinə yönəldiyi iddia olunan sözügedən hesabatla bağlı ciddi suallar doğurur. Əslində bu, absurd təbliğatdan başqa bir şey deyil. Bundan əlavə, hesabatın ermənipərəst hekayələrin təbliğatı məqsədilə Ermənistan hökuməti ilə gəlirli sövdələşməyə uyğun olaraq hərəkət edən sözügedən erməni lobbi qrupu tərəfindən aprelin 5-də keçiriləcək ABŞ-Avropa İttifaqı-Ermənistan üçtərəfli konfransı ərəfəsində ictimaiyyətə açıqlanması sözügedən hesabatın və onu imzalayan sabiq rəsmilərin əsl niyyətlərini üzə çıxarır. Açıq mənbələrdən əldə edilən maliyyə sənədləri sübut edir ki, Anders Rasmussen öz lobbi şirkəti "RasmussenGlobal"ı tanıtmaq və şübhəli lobbiçilik və təsir xidmətləri göstərmək üçün NATO-nun keçmiş Baş katibi statusundan sui-istifadəyə davam edir. Ermənistan Respublikası hökuməti onun müştərisi kimi, "çox düşünülmədən təsdiqlənmiş" bu hesabata görə yüz minlərlə ABŞ dolları xərcləyib.

"Maraqlıdır ki, Azərbaycanın Ermənistanın ərazi bütövlüyü və suverenliyinə təhdid törətməkdə ittiham olunduğu bu hesabatın həmmüəlliflərindən bəziləri böyük şövqlə müdafiə etdikləri Ermənistan tərəfindən Azərbaycana qarşı törədilən işğal və etnik təmizləmənin birbaşa şahidi olublar.

Biz qəti şəkildə, sözügedən birtərəfli mövqenin, eyni zamanda, bütün mövcud faktlara heç bir məhəl qoyulmamasının Ermənistandakı revanşist qrupları Azərbaycana qarşı daha radikal mövqe tutmağa sövq etməklə yanaşı, cəmiyyətdə "Qərbin" sülh prosesində Ermənistanın qeyri-konstruktiv mövqeyini dəstəklədiyi illüziyası yaratdığı qənaətindəyik. Ermənistan hökumətinin maliyyələşdirdiyi təbliğat kampaniyaları Ermənistan tərəfinin regional sülh gündəmi ilə bağlı səmimi olmadığını bir daha nümayiş etdirir. Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi Avropa təsisatları da daxil olmaqla, müəyyən dar düşüncəli siyasətçilər vasitəsilə bahalı və mənasız böhtan kampaniyalarının aparılması regional sabitliyə və sülh quruculuğu səylərinə xidmət etmir. Bunun əvəzinə, Ermənistan hökuməti və erməni lobbi qrupları regionda əsl sülh gündəminin təşviqinə diqqət yetirməlidirlər", - deyə XİN rəsmisi vurğulayıb.

# Sivil dünyamızda terrorizm

Müasir dövrün ən təhlükəli təzahürlərdən biri olan terrorizmin acı nəticələrini hələ də dünyamız yaşamaqdadır. İnsan təlafatları ilə nəticələnən və güclü psixoloji gərginliklər yaşadan terrorizm siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır. İnsanların həlak olması, onların sağlamlığına zərərin və əmlaka əhəmiyyətli ziyanın vurulması əlbəttə ki, terror olaraq hər zaman cəmiyyət tərəfindən nifrətlə qarşılanıb. İctimai təhlükələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və digər hərəkətlər insanların ömürlərini yarımcıq qoymuşdur. Terrorun ən çox rast gəlinən formaları terrorla hədələmə, sui-qəsd, girov götürmə, eləcə də partlayıcı qurğulardan, kimyəvi, bioloji, nüvə və radioloji silahlardan istifadədir.

Bu günlərdə Moskvada "Crocus City Hall"da baş verən dəhşətli hücum bir daha göstərir ki, sivil dünyamızda terror aktları hələ də baş verir və günahsız insanlar bu acı olayın dəhşətlərini yaşayırlar. Bu hadisə yüzlərlə insana psixoloji gərginlik yaşatdı. Konsertə yığışmış insanlar göz yaşı ilə "Crocus City Hall" qorxu və həyacanla, qaça-qaça tərk etdilər. Yüzlərlə insan həlak oldu, yaralandı.

Terrorçuluqdan əziyyət çəkən ölkə kimi Azərbaycan terrorizmin bütün forma və təzahürlərini pisləyir. Zaman-zaman Azərbaycan qarşı terror aktları törədilmiş və bunun acı nəticələrini yaşamışıq. Sülh və təhlükəsizliyin qarantına çevrilən Azərbaycan bəşər svilizasiyasına öz töhfəsini verdiyi bir zamanda terror aktları ilə qarşılaşır.

### TERRORÇUNUN VƏTƏNİ OLMUR

Yaxın tariximizdə baş verən ölkəmizin İran İslam Respublikasındakı səfirliyinə silahlı hücum edilməsi əlbəttə ki, vəhşiliyin nümunəsi idi. Əlbəttə ki, səfirliklər hər bir dövlətin daxilində digər bir ölkəni təmsil edir və təhlükəsizliyindən yerləşdiyi ölkənin hüquq mühafizə qüvvələri cavabdehlik daşıyırlar.

Bəzi mütəxəssislər terroru yeni bir siyasi sistemin qurulmasına dəstək olmaq üçün inqilabi hərəkatlara fokuslanan təhlükəli bir fəaliyyət növü kimi təqdim edirlər. Mənbələrdə göstərilir ki, İsrail tədqiqatçısı Natenyahu da qəsdən və sistematik şəkildə günahsız insanları öldürmək, xəsarət yetirmək və hədələməklə terrorun dünyadakı ən qorxunc insan fəaliyyəti olduğunu vurğulayır.

Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilən silahlı hücum hücum beynəlxalq hüququn bütün normalarının kobud şəkildə pozulması deməkdir. Belə ki, 1961-ci il aprelin 18-də qəbul olunmuş diplomatik əlaqələr haqqında Vyana Konvensiyasında müəyyən edilmiş müddəalara əsasən, Azərbaycan Respublikasının səfirliyinin binasının və akkreditə olmuş əməkdaşlarının təhlükəsizliyini təmin etmək məhz İran dövlətinin də üzərinə düşən öhdəlikdir. Dövlət başçımız bu hücumu beynəlxalq hüquq normalarına sığmayan qatı cinayət olaraq qiymətləndirib. Diplomatik nümayəndəliklərə qarşı terror hücumu bu gün sivil bir dünyada yaşadımız zamanda heç bir məntiqə sığmır.

Azərbaycanın İrandakı səfirliyinə edilən hücum BMT, NATO, Avropa İttifaqı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar tərəfindən qınanmışdır. Eyni zamanda, 60-dan çox ölkənin dövlət başçıları, xarici işlər nazirləri və səfirləri tərəfindən bu silahlı hücum terror aktı kimi pislənmişdir. Müasir dövrün ən təhlükəli təzahürlərdən biri olan terrorizmin acı nəticələrini hələ də yaşamaqdayıq.

### GÜLLƏYƏ TUŞ GƏLƏN 12 NƏFƏR TERRORUN QURBANI OLDU

Dünya inkişaf etsə də bu gün ağıla sığmayan terrorların, faciələrin baş verdiyinin şahidi oluruq. Nə qədər müasirləşsək belə insan qanının tökülməsinə susayan, bunu törətməkdən usanmayanlarla hələ də bir zamanda yaşayırıq. İnsanlıq əleyhinə çevrilmiş terrorların günahsız qurbanları olanların faciəli ölümlər




hər kəsdə bir nifrət, qəzəb hissini oyadır. Qeyri-qanuni zorun, gücün, hədənin tətbiq olunması insanlığa qarşı əməldir. Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) 30 aprel, 2009-cu il tarixində baş vermiş faciənin törədildiyi zamandan 15 ilə yaxın zaman ötsə də bu acını yaşayırıq. Həmin günü o zamanı yaşayan insanlar olduğu kimi yaxşı xatırlayır. Səhər saatlarında 9:30 radələrində keçmiş Azərbaycan Dövlət Neft Akademiyasının Bakı şəhəri Dilarə Əliyeva küçəsində qaz-neft mədən və neft mexanikası fakültələrinin yerləşdiyi ikinci korpusuna daxil olan cinayətkarın birinci mərtəbədən altıncı mərtəbəyədək qarşısına çıxan şəxslərə "Makarov" tipli tapançadan atəş açması nəticəsində 12 nəfər həlak olub, 13 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Gülləyə tuş gələnlər arasında təhsil ocağının professorları, müəllimləri, laborantları və tələbələri olublar. Yaralıların 3-ü xarici vətəndaşı idi: ikisi Sudan, biri isə Suriya. Cinayəti törətmiş 1980-ci il təvəllüdlü Gürcüstan vətəndaşı Qədirov Fərda Əsəd oğlunun üstündən ona məxsus şəxsiyyət vəsiqəsi, "Makarov" tipli tapança, habelə hər biri 40 güllə tutumlu və içərisində 71 güllə olan xüsusi üsulla hazırlanmış 3 patrondaş, 2 tapança sandıqçası aşkarlanaraq götürülmüşdü. Cinayət işi üzrə təqsirli bilinən dörd nəfər də layiqli cəzalarını alıblar.

### XƏLİFƏLİÇAY ÜZƏRİNDƏKİ KÖRPÜ PARTLADILDI

Terror aktlarının sayı-şesabı yoxdur. 1992-ci il yanvarın 28-də Ağdamdan Şuşaya uçan "Mİ-8" mülki helikopterinin erməni terrorçuları tərəfindən Xankəndi istiqamətindən qumbaraatanla vurulması terrorun acı nəticəsidir. Terror hadisəsi Şuşanın Xəlfəli kəndi yaxınlığında baş vermiş, hadisə nəticəsində əksəriyyəti qadın və uşaqlardan ibarət 41 sərnişin və 3 ekipaj üzvü, ümumilikdə 44 nəfər həlak olmuşdur. 44 nəfərin həlak olunması erməni faşist ideologiyasını bir daha üzə çıxarır. Xatırladaq ki, hadisədən iki ay əvvəl - 20 noyabr 1991-ci ildə ermənilərin Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında "Mİ-8" helikopterini atəşə tutması nəticəsində Azərbaycanın bir çox dövlət xadimləri və jurnalistlər həlak olmuşdular. Həlak olanların arasında dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev və başqaları var idi. Ümumilikdə qəza nəticəsində 22 nəfər həlak olmuşdu.

### QARABAĞ MÜNAQİŞƏSİNİN İLK QURBANLARI

1988-ci ildə Ermənistan SSR-dən gəlmiş erməni millətçi emissarlarının təşkilatçılığı ilə Xankəndində ermənilər Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana verilməsi tələbi ilə icazəsiz mitinqlərə başlanılıb. İlk mitinq 13 fevral 1988-ci ildə Xankəndinin mərkəzi meydanında təşkil olunub. Bundan bir həftə sonra, 20 fevralda Dağlıq Qarabağ Ali Sovetindəki erməni deputatlar qanunsuz olaraq vilayətin Azərbaycanın tərkibindən ayrılaraq Ermənistan SSR-ə birləşdirilməsi məsələsini qaldırıblar. Bu, Qarabağın azərbaycanlı icmasının haqlı narazılığına səbəb olub. Bundan sonra sovet rəhbərliyi vəziyyəti stabilləşdirmək üçün Xankəndinə Daxili Qoşunların batalyonunu göndərib. Həmin aylardan etibarən ermənilərin azərbaycanlılara qarşı terror hərəkatı başlanıb. Xankəndi erməniləri Şuşaya gələn su kəmərini zəhərləməyə cəhd ediblər. 20 fevralda Xankəndi mərkəzi xəstəxanasında praktika keçən iki azərbaycanlı tələbə qız ermənilər tərəfindən zorlanıb. 2 gün sonra isə Ağdamdan yüzlərlə azərbaycanlı gənc bunun qisasını almaq üçün Xankəndinə yürüş edib və onların qarşısı Əsgəranda silahlı ermənilər və rus əsgərləri tərəfindən kəsilib. Baş verən qarşıdurmada iki azərbaycanlı qətlə yetirilib və çoxlu sayda insan isə yaralanıb. Bu gənclər sonradan illərlə davam edəcək Qarabağ münaqişəsinin ilk qurbanları olublar. Bu bir daha ermənilərin terrorçu olduğunu sübut edən dəlillərdir. Belə ki. 1988-ci ilin yayında Xankəndi Uşaq Xəstəxanasında həkim-rentgenoloq işləyən əslən ağdamlı şəxs ermənilər tərəfindən xəstəxananın həyətində döyülərək, qətlə yetirilib. 28 iyun 1989-cu il tarixində ermənilər tərəfindən Badara qəsəbəsindən Meşəliyə gedən şosse yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı 6 nəfər mülki azərbaycanlı ağır yaralanıb. 1990-cı il may ayında Bakı-Xankəndi qatarı və Xankəndi-Ağdam avtobusu partladılıb. 1990-cı ilin iyununda xankəndili Əşrəf və Ələmşah adlı iki qardaş 336-cı moto-atıcı alayın qarşısında diri-diri yandırılıb. 5 sentyabr 1991-ci ildə Xankəndidəki radio-televiziya stansiyası partladılıb. Bu günə kimi bu hadisədə əli olanların adları məlum deyil. 1991-ci il yanvarın 5-də Kərkicahan ərazisinə ermənilər tərəfindən hücumlar olunur. Beləcə, qəsəbə 3 nəfəri itirir. Lakin erməni tərəfindən də, çoxlu itkilər olur. 1991-ci il fevralın 4-də ermənilər azərbaycanlılar yaşayan bir neçə binanı partladır, güllələyiblər. 24 fevral 1991-ci ildə Şuşadan Ağdam rayonuna gedən "PAZ-3205" dövlət nömrə nişanlı avtobus şəhər ərazisində partladılmış, nəticədə 7 nəfər vəfat etmişdir. Həmçinin ermənilər bu zaman ərzində oğurluq və talançılıq işlərinə də, əl atıblar.

### SOVET DÖNƏMİNDƏ BAKIDA 106 SAYLI SƏRNİŞİN AVTOBUSDA YAŞANILAN TERROR

İllər uzunu ölkəmizin demək olar ki, hər bir yerində ermənilər tərəfindən törədilən bu və ya digər faciələri, qətliamlar yaşamışıq. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Mənfur qonşularımız bizə qarşı məkrli, çirkin niyyətlərini həyata keçimişdilər. Hələ sovet dövründə yaşadığımız illərdə 8 sentyabr 1984-ci ildə Bakıda 106 saylı sərnişin avtobusunun erməni terrorçusu Henrix Vartanov tərəfindən partladılması zamanı iki uşaq anası olan Surxalizadə Fatma həlak olmuş, üç nəfər yaralanmışdır. Hadisə o vaxt SSRİ-nin xüsusi xidmət orqanları tərəfindən terror aktı kimi deyil, onunla Vartanovla müdiriyyət arasında olan narazılıq kimi qiymətləndirildi, Hadisənin təşkilatçısı olan Henrix Vartanov psixi xəstə kimi qəbul edilərək həbsdən azad edilərək məcburi psixi müalicəyə göndərildi. Əlbəttə ki, bu erməni-pərəst qüvvələrin himayəçilərinin əməlləri idi. 16 sentyabr 1989-cu ildə erməni terrorçuları Tbilisi-Bakı reysi ilə işləyən sərnişin avtobusunu partlatmışlar. 5 adam həlak olmuş və 25 nəfər yaralanmışdır. 13 fevral 1990-cı ildə Yevlax-Laçın yolunun 105-ci km-də "Şuşa-Bakı" marşrutu ilə hərəkət edən avtobus partladılmış, nəticədə 13 nəfər ağır yaralanmışdır. 24 mart 1990-cı ildə "Noraşen-Bakı" yolunun 364-ci km-də dəmir yolu partladılmış, nəticədə teplovoz və 3 vaqon partladılmış, 150 metrdən çox dəmir yolu xətti yararsız hala düşmüşdür. Bu siyahını artırmaq üçün əsas dəlillər çoxdur. Hər bir terror aktında insan ölümü diqqəti çəkir. Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb.

### BMT-NİN UŞAQ HÜQUQLARI HAQQINDA KONVENSİYASININ MÜDDƏALARI KOBUD ŞƏKİLDƏ POZULUB

44 günlük Vətən müharibəsində də xalqımız ermənilərin təcavüzkar siyasəti ilə üz-üzə qaldı. Müharibə getməyən ərazilərimizdə Gəncədə, Mingəçevirdə, Bərdədə yaşından asılı olmayaraq uşaq da, gənc də. qoca da bu terrorların acı nəticəsini yaşamış oldu.

30 ilə yaxın bir zamanda beynəlxalq hüququn tələb və təkidlərinə məhəl qoymayan beynəlxalq konvensiyalara zidd topladığı silahlarla 44 günlük müharibədə Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə mülki əhalinin kompakt yaşadığı ərazilərə raket zərbələri endirməsi Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasında xəbər vermiş oldu. Qocaya, cavana, uşağa qıyan erməni müharibə qanunlarını belə pozaraq çirkin niyyətləri ilə tarixən nəyə xidmət etdiklərini bir daha göstərdi. Lənətlənmiş erməni əməllərinin izi Azərbaycan tarixinin hər səhifəsindən görünür. Bunu silmək, yox etmək qeyri-mümkündür. Gəncə şəhərini raket atəşinə tutması nəticəsində Şahnəzərovlar ailəsinin yaşadığı faciə yaddan çıxarmı? Dağıntılar altından ailənin yalnız bir üzvü - 2017-ci il təvəllüdlü Xədicə Şahnəzərova sağ çıxarıldı. Azyaşlı qızın atası Röyal, anası Züleyxa və yaşyarımlıq bacısı Məryəm isə erməni terrorunun qurbanları oldu. Dünya, insanlıq bu faciəni necə qəbul edə bilər? Azyaşlıya qıyan, onu yetim qoyan, insanları şikəst, kor edən, əlil edən, bir ailənin faciəsini qatili olan erməni. O erməni ki, 2017-ci ilin iyul ayının 4-də Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutdu.

1994-cü ildə atəşkəs rejiminin elan olunmasına baxmayaraq, Vətən müharibəsinə qədər 30-dan artıq azərbaycanlı uşaq erməni terrorunun qurbanı oldu. Onlardan 13-ü həlak olub, 19-u isə yaralanıb. 2 yaşlı Zəhra Quliyeva da erməni vandalizminin qurbanına çevrildi. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozub. Müasir dünya inkişaf etsə də, yenə də terror hadisələrinə rast gəlirik. Bu gün baş verən hadisələrə, cəmiyyətə yanaşma da fərqlidir. Bəşər sivilizasiyasının yüksək nöqtəsində ağıl və idrakın sivil bir nöqtəyə yüksəldiyi zamanda insana sui-qəsdin edilməsi, düşünülmüş terrorun törədilməsi əlbəttə ki, heç bir məntiqə sığa bilməz.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Pavel Klaçkov: "Qərb Cənubi Qafqazda 2-ci cəbhə açmağa çalışır"

***Rusiya hökuməti yanında Maliyyə Universitetinin filial direktoru, tanınmış politoloq Pavel Klaçkov "Moskva-Baku" portalına müsahibəsində hansı qüvvənin MDB-də sabitliyi pozmaq cəhdləri etdiyini şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.***

*- Pavel Vladimiroviç, Rusiya liderinin mətbuat katibi Dmitri Peskov deyib ki, MDB ölkələri Rusiyanın əsas xarici siyasət prioritetidir. Biz bunu Rusiya Federasiyasının yenilənmiş Xarici Siyasət Konsepsiyasından bilirik və bu məntiqlidir. Amma bu gün yeni geosiyasi situasiya fonunda Birlik məkanında nə yolla olursa-olsun, növbəti dəfə sabitliyi pozmaq cəhdi var... Buna misal olaraq "Krokus Siti Holl"da baş vermiş dəhşətli terror aktını göstərmək olar.*





- Mən vəziyyəti belə görürəm: Qərb, açığını desəm, artıq Rusiya ilə hibrid müharibə aparmaq üçün özünü gərginləşdirməyə başlayıb, Qərb bloku ənənəvi müharibəsində uduzur və hər şeyi qarşıdurma ocağına atmaq qərarına gəlib. Qərb ideyasına xidmət edənlərin əlləri hələ də hər yerə çata bilir. Qərbin nə dünya tarixi, nə də öz xalqı qarşısında heç bir məsuliyyəti, mərhəməti yoxdur. Qərb elitaları postsovet məkanında təsir siyasətini davam etdirməyə çalışırlar, lakin bu, məhvetmə siyasətidir. Biz Rusiyanı bezdirmək, onu zəiflətmək, sərhədimizin bütün perimetri boyu yeni gərginlik mərkəzləri yaratmaq istəyini görürük. Bu həm Şərqi Avropa hərbi əməliyyatlar teatrına, həm də Zaqafqaziyaya aiddir. Qərb və Mərkəzi Asiya istiqaməti də xüsusi maraq doğurur. Bu ərazilərdə və bacardıqları hər yerdə Rusiya əleyhinə işlər aparırlar.

Biz Rusiyada terror aktından sonra müxtəlif millətlərin nümayəndələri arasında toqquşmaya cəhdin məlum taktikasını görürük. Amma ənənəvi olaraq sakit olmaq, təxribatlara boyun əyməmək lazımdır.

Biz Ermənistanda Qərb siyasi strateqlərinin manipulyasiyalarını görürük, Qərb respublikanı intihara meyllləndirərək anti-Rusiya cərəyanına sürükləyir. Eyni zamanda, tamamilə göz qabağındadır ki, bu respublika heç vaxt Avropa İttifaqının və ya NATO-nun bir hissəsi olmayacaq, çünki açığını desəm, onlardan bir az uzaqda yerləşir.

Rusiya həmişə Cənubi Qafqazda təhlükəsizliyin təminatçısı olub. Amma nə Avropa İttifaqı, nə ABŞ, nə də Qərbdə heç kim əsl qarant olmayıb.

Bu gün Qərbin peykinə çevrilmək və ya elə qalmaq istəyən ölkələr, xüsusən də coğrafi baxımdan heç bir əlaqəsi yoxdursa, indiki dünya düzəninin inkişafının yeni tendensiyalarına uyğun gəlməyən yanlış yolu seçirlər. Dövlətlər onun ayrılmaz suverenlik hüququnu yüksək səslə bəyan etməyə və çoxqütblü dünyanın inkişafında iştirak etməyə çalışdıqda dünya Qərbin ona tətbiq etdiyi hegemonluğundan imtina edir. Və istər-istəməz, Qərbə tabe olmaq üçün belə seçim bu ölkələr üçün faciə ilə başa çatacaq: suverenliyin itirilməsi, inkişafın olmaması, başqalarının tələblərinə əməl etmək zərurəti və sonda ehtimal olunan çöküş.

Bu il Rusiya MDB-yə sədrlik edəcək. Və biz, əlbəttə ki, bu mövqedə Birlik institutunu gücləndirmək, strateji əhəmiyyətli yollar üzrə qarşılıqlı fəaliyyətimizi dərinləşdirmək üçün səylər göstərməliyik. Doğrudan da, KTMT-də olduğu kimi, çünki onlar təşkilatın effektivliyini inkar etməyə çalışırlar. Rusiya Federasiyası başa düşür ki, təbii ki, mehriban qonşuluq münasibətləri, xüsusilə Rusiya ilə Qərb arasında qlobal münaqişə fonunda mühüm əhəmiyyət kəsb edir, dost ölkələrlə mövqeləri əlaqələndirmək və münasibətləri inkişaf etdirmək vacibdir. Ancaq birtərəfli dostluq yoxdur. Münasibətlər həmişə qarşılıqlı faydalı olmalıdır.

Heç kim inkar etmir ki, "gəlin birlikdə parlaq gələcəyə gedək" tezisi çox azdır. Qarşılıqlı faydalı əməkdaşlığı gücləndirmək üçün əməli iş lazımdır. MDB-nin ümumi təhlükəsizliyini gücləndirmək, qarşılıqlı hörmətə əsaslanan münasibətləri inkişaf etdirmək lazımdır. Xüsusən də xarici qüvvələrin ayrı-ayrı KTMT-yə üzv ölkələrin "əlləri" ilə təhlükəsizliyi pozmaq cəhdləri fonunda.

Qərb dünyanın müxtəlif bölgələrinə dağıntı, nifaq və anarxiya gətirir. Ermənistan bu gün Ukrayna, Moldova, Gürcüstandan sonra yeni qurban və "anti-Rusiya" quruculuğunun mərkəzinə çevrilib- bu dəfə Cənubi Qafqazda.

Qərb bu gün Ermənistana xüsusi münasibət göstərir. Amma bu prosesdə ayrı-ayrı dövlətlər xüsusilə fəaldırlar- xüsusən də onu öz himayəsinə götürən və böyük həcmdə silah və öz əsgərlərini söz verən Fransa. Nəhayət, bütün bu "pərəstişkarlıqlar" və "vədlər" adi insanların əziyyət çəkəcəyi hoqqabazlıqdan başqa bir şey deyil.

Ermənistanla bağlı vəziyyətin tez dəyişəcəyinə ümidim yoxdur. Göründüyü kimi, Rusiya-Ermənistan münasibətlərində mənfi mərhələ kifayət qədər uzun olacaq. Əgər üzünüzə tüpürürlərsə, cəmiyyətdə anti-Rusiya əhval-ruhiyyəsi alovlanırsa, buna dözmək olmaz. İnanıram ki, nə vaxtsa Rusiya qərar verəcək ki, kifayətdir. Və nəticədə Ermənistan yenə gəlib yalvarmağa başlayacaq.

Qərb şübhəsiz ki, Cənubi Qafqazda ikinci cəbhə açmağa çalışır. Amma çətin ki, onun bu planını həyata keçirə bilsin.

Qərbin ona və bütün MDB məkanına açıq-aşkar hücum cəhdləri şəraitində Rusiya effektiv, praqmatik, real siyasət aparmalıdır. Bəli, Ermənistan rəhbərliyi Qərbin xüsusi xidmət orqanlarının rəhbərləri ilə, bəli, Rusiya və Belarus müxalifəti ilə görüşür. Biz Qərbin xüsusi xidmət orqanlarının Ermənistana böyük marağını qeyd edirik. Bax, onlar belə işləyir. Səhər işə gəlirlər və onların qrafiki var: Paşinyana zəng edir, ona bəzi göstərişlər verir, onun yanına nümayəndələr göndərirlər. Bu, onların gündəlik işlərinin parçasıdır. Sadəcə olaraq, Rusiya və Qərb arasında qlobal münaqişə kontekstində bütün bunlar bir zəncirdə halqalardır. Rusiya ilə Qərb arasında şiddətli qarşıdurma var. Amma bu da sonsuza qədər davam edə bilməz.

***Tərcümə - Elçin Bayramlı***

# "Terror lokal deyil, qlobal hadisədir"

"Terror müasir dövrdə dünya ölkələri üçün çox ciddi problemdir". Bu sözləri SİA-ya açıqlamasında fəlsəfə doktoru, sosioloq Ağasəlim Həsənov deyib. O bildirib ki, hər bir ölkə özünün milli təhlükəsizlik strategiyasında terrorçuluq, terrorçuluğa qarşı mübarizə ilə bağlı konkret strategiya hazırlayır: "Terrorçuluqdan minimum sığortalanmaq üçün öz fəaliyyətini qurur və mübarizə aparır. Bu gün faktiki olaraq dünyanın müxtəlif coğrafiyalarında terrorçuluqdan əziyyət çəkən ölkələr, xalqlar və sair göz önündədir. Düşünürəm ki, beynəlxalq terror anlayışının məzmununa aydınlıq gətirməkdən, onunla mübarizə yollarından əvvəl terrorçuluq anlayışının məzmununa aydınlıq gətirməliyik.

Terrorçuluq dedikdə ictimai təhlükəsizliyi pozmağa yönəlmiş, əhali arasında çaşqınlıq, vahimə yaratmaq, yaxud dövlət hakimiyyəti orqanlarına, beynəlxalq təşkilatlara, beynəlxalq təşkilatlarda hansısa qərarların qəbul edilməsinə qarşı yönəlmiş anti-humanist fəaliyyət nəzərdə tutulur. Hansı ki, bu fəaliyyətin nəticəsində insan həyatına vurulan zərərdən tutmuş xüsusi, yaxud dövlət əmlakına vurulan zərər də daxil olmaqla bütövlükdə ictimai təhlükə yaratmaq, diqqət cəlb etməyə yönəlmiş fəaliyyət nəzərdə tutulur. Bunun üsullarına gəldikdə isə terrorçuluqda partlayış, yanğın, digər bunlara bənzər hərəkətlər törətmək yolu ilə, bu məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə bağlı hədələmələr nəzərdə tutulur. Terrorçular öz məqsədlərinə çatmaq üçün bu cür antihumanist fəaliyyət göstərirlər.

Konkret olaraq terrorçu dediyimiz şəxs hər hansı formada terror fəaliyyətinin həyata keçirilməsində iştirak edən şəxs və ya şəxslər qrupudur. Tək şəxsdirsə, terrorçu şəxs, sayı iki və daha çoxdursa, terrorçu qrup kimi qiymətləndirilir. Böyük terror təşkilatları vardır ki, (məsələn, ASALA, PKK) beynəlxalq səviyyədə terror təşkilatları kimi tanınır. Bunlar öz seçim məqsədlərinə çatmaq üçün hədəf seçdikləri ölkələrin ərazisində müxtəlif terror aktlarının həyata keçirilməsi ilə daimi gündəmə gəlirlər.









Beynəlxalq terror beynəlxalq terror fəaliyyəti ilə bağlı anlayış olaraq meydana çıxıb. Elmi ədəbiyyatda da biz bu anlayışa rast gəlirik. Beynəlxalq terror fəaliyyəti dedikdə terrorçular və ya terror təşkilatları tərəfindən bir neçə dövlətin ərazisində həyata keçirilən və ya bir neçə dövlətin maraqlarına zərər vura bilən fəaliyyət nəzərdə tutulur. Bu fəaliyyətlərin də maraqları, hədəfləri var. Bu hədəflərə çatmaq üçün antihumanist mexanizmlər var. Terrorçular məhz bu üsullarla çirkin məqsədlərinə çatmaq yolunu müəyyənləşdirirlər. Öz hədəflərinə çatmaq üçün istənilən antihumanist hərəkətləri etməkdən çəkinmirlər. Belə olduğu halda terrorun beynəlxalq terror kimi qiymətləndirilməsi artıq mümkündür. Bu əməliyyatlar olduğu halda baş vermiş terror hadisəsi beynəlxalq terror kimi qiymətləndirilə bilər.

Ötən əsrin 90-cı illərindən etibarən Azərbaycan dəfələrlə teraktların qurbanı olmuşdur. Bizim insanlar həyatlarını itirmişdilər. Məsələn, Bakı metropolitenində baş verən terror hadisələrini, avtobuslarda, müxtəlif nəqliyyat vasitələrində baş verən teraktları qeyd edə bilərik. Teraktların törədilməsi ilə bağlı müfəssəl, dəqiq məlumatlar xüsusi xidmət orqanlarındadır. Amma ümumiyyətlə qeyd edə bilərik ki, düşmən Ermənistan, onların xüsusi xidmət orqanları, ASALA terror təşkilatı hər zaman Azərbaycan ərazisində müxtəlif terror aktları törətməkdə maraqlı olublar. Hətta bu terror aktları Azərbaycan ərazisində törədilib. Müstəqilliyimizin son 20 ili ərzində Azərbaycan milli təhlükəsizliyini yüksək səviyyədə təmin edə bilib. Mənfur qonşularımızın Azərbaycan ərazisində keçirmək istədiyi hər hansı terror aktlarının qarşısı alınır. Ümid edirik ki, bu həmişə belə olacaq, dövlətimiz daha da güclənəcək, insanlarımız daha da ayıq-sayıq olacaq, terrorla mübarizədə hər zaman öz dövlətinə dəstəkləri verəcəklər".

"Digər ölkələrdən isə qardaş Türkiyənin durmadan terrorla apardığı mübarizəsini qeyd etməliyik. Çünki PKK terror təşkilatı dayanmadan Türkiyə Cümhuriyyətinin ərazisində müxtəlif teraktlar törətməyə cəhdlər edir. Bəzən, təəssüf ki, bunlar baş tutur, insanlar həyatını itirir. Eyni zamanda Türkiyə dövləti də beynəlxalq terrora qarşı dövlət, xalq olaraq öz gücünü nümayiş etdirir.

Son günlər Rusiya paytaxtı Moskvada da baş vermiş terror aktı arzuolunmaz hal idi. Baş verən terror aktının hansı dairələrdən idarə olunması ilə bağlı konkret fikir söyləyə bilmərik. Amma baş tutan bu terror aktı nəticəsində onlarla insan həyatını itirdi, dövlətə maddi zərər dəydi. Hər baş verən terror hadisəsindən maddi itkilərlə yanaşı, mənəvi sarsıntılar da olur. Xalq, dövlət bu və ya digər şəkildə əziyyət çəkmiş olur.

Terakt elə bir hadisədir ki, onun hansı ölkənin ərazisində baş verməsindən, hansı dairələrə qarşı yönəlməsindən asılı olmayaraq istənilən halda terror fəaliyyəti ilə məşğul olan terror təşkilatları daimi qınaq obyektinə çevrilməlidir. Bütün ölkələr terrorizmə qarşı mübarizədə qarşılıqlı əməkdaşlıqda maraqlı olmalıdırlar. Çünki bu gün bu dövlətin ərazisində baş verən terror aktı sabah digər ölkənin ərazisində baş verə bilər. Çünki terrorçuların maraq dairələri müxtəlifdir. Konkret olaraq müəyyənləşdirdikləri ölkəyə qarşı onların fəaliyyət planı var. Onlar durmadan bu çirkin fəaliyyətlərini davam etdirirlər. Amma geniş düşündükdə terror lokal deyil, qlobal hadisədir. Dünyanın bir çox ölkələrində, təəssüf ki, terror aktlarının şahidi oluruq. Bu, reallıqdır. Harada, hansı səbəbdən baş verməsindən asılı olmayaraq terror aktı qınanmalıdır, dövlətlər, xalqlar əl-ələ verib terrorizmə qarşı birgə mübarizədə həmrəylik nümayiş etdirməlidirlər" - deyə o əlavə edib.

***Söylü Ağazadə***

# Sevinc Osmanqızı Əli Kərimlini istefaya çağırdı



Dünya iqtisadi - sosial yenilikləri, informasiya texnologiyaları ilə insanların yaşayışına, fəaliyyətinə, həyat tərzinə rəng qatmaqla bəşəriyyəti daha da gözəlləşdirir. Bu baxımdan müəyyən bölgə əhalisini çıxmaqla ümumilik də bəşəri varlıq yeni dövrün düzənindən məmnundur. Təbii ki, müasir dövrün yeniliklərini qəbul etməyən və ya müasirliklə ayaqlaşa bilməyənlər də var. Məhz bu kateqoriyadan olan insanlar yeniliklərə qarşı çıxır və hər vəchlə müasir inkişafı tənqid edirlər. Xüsusilə də, siyasət də olub, siyasi fəaliyyətlə məşğul olan, lakin ictimai rəy tərəfindən qəbul edilməyənlər yeniliklərə qarşı mənfi münasibət sərgiləyirlər. Elə siyasətçilər də var ki, müasir inkişafın yeniliyi olan sosial şəbəkələrdən özlərinə məxsus forma da istifadə edirlər. Yəni daha çox sosial şəbəkələrdən özlərinin çirkin kampaniyaları və böhtanları üçün yararlanmağa çalışırlar. Əksər hallar da düşünmədən, araşdırıb nəticə əldə etmədən fikir yürüdür, cəfəng iddialar, ittihamlar irəli sürürlər. Sonradan isə məlum olur ki, dağıdıcı müxalifətin üzdən iraq ünsürləri olan AXCP sədri Əli Kərimli, Milli Şuranın rəhbəri Cəmil Həsənli, Müsavat başqanı Arif Hacılı və xaricdəki antimilli ünsürlər məqsədli şəkil də səhvlərə yol veriblər. Lakin bu halda belə müxalif ünsürlər yol verdikləri kobud səhvlərinə görə, üzxahlıq etməyiblər, yanlış statuslarını sosial şəbəkələrdən silməyə maraq göstərmirlər. Əksinə bir növ at kimi üzə durub, deməк istəyirlər ki, onlar mövqelərində haqlıdırlar.

### Boşboğazlar ənənəvi böhtanlarından əl çəkmirlər

44 günlük Vətən müharibəsinə qədər " torpaqlarımızın azadlığı mümkün olmayacaq" deyirdilər. Hətta aralarında elələri vardı ki. "bir kənd işğaldan azad edilsə qulağımı kəsəcəm" deyirdi. Ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olundu. 23 saat 44 dəqiqə çəkən antiterror əməliyyatları ilə bölgədəki bütün terrorçu hərbi birləşmələrin məhv edilib, əksər separatçı başların həbs edilərək istintaqa təhvil verilməsi ilə oldu. Oktyabrın 15-də isə Yenilməz Sərkərdə, Ali Baş Komandan, Prezidentimiz İlham Əliyev Xankəndi şəhərində xalqa müjdəli müraciət etdi və əzəmətli binanın qarşısında Azərbaycanın üç rəngli bayrağını ucaltdı. Bu qürurverici anları dünyanın əksər televiziyaları yayımladı, mətbuatları işıqlandırdı, dostlar millətimizə təbrik məktubları ünvanladılar. Lakin boşboğazlıq edənlər nə qulaqlarını kəsdilər, nə də ki, sayıqlamalarına görə xalqdan üzr istədilər. Hətta nala-mıxa vuran fikirlərini bir qədər də inkişaf etdirməyə çalışırlar. Proseslərin başında Ə.Kərimli dursa da A.Hacılı və C.Həsənli də qarayaxma kampaniyasında geri qalmadıqlarını nümayiş etdirirlər. Xaricdəki antimilli ünsürlər də şər və böhtanların, ağılsız iddialı fikirləri ilə sifarişlərin icrasında zəiflərdən olmadıqlarını göstərirlər. Ancaq çirkin oyunların əsas peşkası Ə.Kərimli hesab olunur. Əli Kərimli özünü gah siyasəyçi, gah da bloger kimi təqdim etməyə çalışsa da cəmiyyət onu maraqlı tərəflərin trolu olaraq tanıyır. Sadəcə Ə.Kərimlinin digər trollardan fərqi ondan ibarətdir ki, xarici maraqlı dairələr birbaşa onunla işləyirlər. Yəni Ə.Kərimliyə maddi yardımlar göstərir və qarşılığında müəyyən işlər tələb edirlər. Bu əməkdaşlıq çərçivəsində Ə.Kərimli hər vəchlə çalışır ki, ətrafına daha çox trol toplaya bilsin. Demək olar ki, Ə.Kərimli qismən də olsa bu istiqamət də məqsədinə nail ola bilib.

### Əli Kərimli özünə hörmət etməyən trollardandır

AXCP-nin trollarından olan Fuad Qəhrəmanlı, Seymur Həzi, İlham Hüseyn, Natiq Ədilov və digərləri vaxtaşırı olaraq xor dərnəyinin banlayan üzvləri kimi Ə.Kərimlinin şər və böhtan xarakterli paylaşımlarını bəyənir və öz səhifələrində paylaşmaqla dəstəkləyirlər. Nədi-nədi Ə.Kərimli aldığı qrantdan onlara da qəpik -quruş ayırır. Bu hal utancvericidir. Çünki, özünə hörmət etməyi bacaran şəxs kiminsə tapşırıqlarına boyun əyib, trolluq etməz. Görünən isə ondan ibarətdir ki, dəstəbaşı Ə.Kərimlinin və trollarının cəhdləri uğursuzluğa düçar olur. Çünki cəmiyyət onların haradan qidalandıqlarını və məqsədlərinin nədən ibarət olduğunu yaxşı bilirlər. Hətta vəziyyət o həddə çatıb ki, bir zaman eyni şəbəkə də eyni tapşırığın qulu olanlar belə artıq bir-birinin gərəksizliyini sübut etməyə çalışırlar. Xüsusilə də ABŞ-da oturub müxtəlif mövzular da banlayan Sevinc Osmanqızı Ə.Kərimlini iffşa edən yeni-yeni faktlarla çıxış edir. Bildirir ki, müxalifətin birliyinə və ictimai marqlara uyğun fəaliyyət göstərməsinə ən böyük zərbəni Ə.Kərimli vurur. S.Osmanqızı özünün TV-sin də Əli Kərimlini AXCP sədrliyindən istefa verməyə də çağırıb: "Əgər seçkilərə qatılmırsansa və ciddi nəticələr ortaya qoya bilmirsənsə, nədən özünü partiya sədri olaraq təqdim edirsən? Niyə AXCP sədrliyindən istefa verib, nümunə göstərmirsən?".

S.Osmanıqızı məkrli şəbəkənin üzvü olmaqla özü haqqında ikrahedici rəy formalaşdırsa da Ə.Kərimli haqqında söylədiklərində həqiqət var. Bu başqa söhbətin mövzusudur ki, S.Osmanqızının Ə.Kərimliyə yönəlik haqlı iddiaları nədən qaynaqlanır və niyə görə dünən deyil, bu gün əsaslı fikirlərlə çıxış edir? Aralarında olan qarşıdurmanın səbəbinə nəzər yetirmədən qeyd etmək olar ki, S.Osmanqızı Ə,Kərimlini küncə sıxışdıra bilib. Birincisi ona görə ki, S.Osmanıqzının əlində "Osmanqızı TV" adlı təbliğat maşını var. İkincisi isə, S.Osmanqızı qaranlıq şəbəkənin yerləşdiyi ofisin yaxınlığında yaşayır. Bütün bunlardan sonra çox aciz durumda olduğunu demək olar. Əgər bu hal da Ə.Kərimli özünə hörmət edənlərdən olsa idi, əlavə zərbələr və yeni ifşaedici ittihamlarla üzləşməmək üçün S.Osmanqızının tələb etdiyi kimi AXCP sədrliyindən istefa verməlidir.

***İLHAM ƏLİYEV***

# "Ermənistan qorxulu oyunlar oynayır"









"Ermənistan qorxulu oyunlar oynayır. Belə ki, regionda formalaşmış geosiyasi konfiqurasiyanın dağılmasına və Cənubi Qafqazın yeni gərginlik məkanına çevrilməsin xidmət edən addımlar atır. Bu baxımdan Avropa İttifaqının Ermənistandakı misisyasının statusunu parlamentdə ratifikasiya olunması ABŞ hərbiçilərinin də gəlməsinə imkan yaradcaq və Cənubi Qafqazı nüfuz rəqabəti məkanına çevirəcək". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.

Deputat sözlərinə belə davam edib: "Ermənistan parlamentinin bu addımı aprelin 5-də Brüsseldə Paşinyanla Blinken və Ursula fon der Lyayen arsında keçirilməsi nəzərdə tutulan üçtərəfli görüşünə hazırlıqla bağlıdır. Bu görüş zamanı hətta Ermənistanın təhlükəsizliyinə zəmanət adlı sənədin qəbul olunacağı da bildirilir. Təbii ki, Qərbin bu hərkətləri Cənubi Qafqazda baş verən prosesləri birtərəfli həll etmək niyyəti daşıyır. Bu, Azərbaycanın maraqlarına ziddir. Çünki, bütün bu proseslər sərhədlərimizdə baş verir. Ölkəmiz Ermənistana sülh və əməkdaşlıq təklif etdiyi halda Ermənistan hakimiyyəti isə regiona ABŞ və Aİ-nın hərbi bazasını yaratmağa çalışır. Burda sual olunur ki, ABŞ və Ai-nın hərbiçiləri Ermənistanı kimdən qorumaq üçün zəmanət vermək istəyir. Təbii ki, Azərbaycan müharibənin başa çatdığını və Ermənistanın ərazilərində gözü olmadığını açıq şəkildə bəyan edib. Qərbə isə Cənubi Qafqazda sülhün və əməkdaşlığın yaranması maraqlı deyil və ona görə də Ermənistanı silahlandırır. Qərbin bu addımları Cənubi Qafqazı yenidən müharibə meydanına çevirmək niyyətindən irəli gəlir. Qərbin hərbi bazasının Ermənistanda yerləşdirilməsi Rusiyanın və İranın maraqlarına da ziddir. Çünki, uzun illərdir ki, Rusiya Ermənistanda 102-ci hərbi bazasını saxlayır və sərhədlərini qoruyur. ABŞ-ın hərbi bazasının Ermənistanda yerləşməsi Rusiyanın 102-ci bazası ilə Qərbin üz-üzə gəlməsinə gətirib çıxaracaqdır. Beləliklə Rusiya hərbiçiləri ilə Qərbin hərbiçiləri arasında Ermənistanda toqquşmanın baş verməsi qaçılmaz olacaq.

İran ABŞ münasibətlərində də uzun illərdir ki, gərginlik yaşanır. O cümlədən ABŞ-ın müəllifliyi ilə Qərbin İrana sankisyalar tətbiq olunmuşdur. ABŞ-ın İranda da öz maraqları var. ABŞ maraqlarını həyata keçirmək üçün Ermənistan ərazisini hərbi plasdarm kimi istifadə edəcəkdir. Bu baxımdan ABŞ-ın hərbi bazasının Ermənistanda yaradılması İranın təhlükəsizliyinə böyük zərbədir. Bu baxımdan Ermənistanı ABŞ hərbiçilərini gətirmək planı İran, Ruisya və Qərb arasında müharibəinin alovlanacağı yeni bir ocağı əmələ gətirəcəkdir. Baş verən proseslər hətta Üçüncü Dünya müharibəsinin Cənubi Qafqazdan başlayacağı ilə bağlı proqnozların verilməsinə zəmin yaradır. Ermənilər tarixi ölkələr arası araqarışdırma və gərginliklər yaratmaqla zəngin olub. Onlar həmişə gərginliklər yaratmaqla özlərinə qazanc əldə etməyinə öyrəşiblər. Amma zamana dəyişilib və bu gün Cənubi Qafqazda yenidən gərginlik baş verərsə Ermənistan nəinki heç nə qazanmayacaq, hətta ancaq hərbi güclərin ayaqları altında qalacağına şübhə yoxdur".

***Ayşən Vəli***

# 8 kəndin taleyi: itirilənlər geri qaytarılır

Azərbaycanla Ermənistan arasında sülh müzakirələri getdiyi bir zamanda bütün diqqət təbii ki, işğal altında qalan kəndlərimizin geri qaytarılması məsələsinin həll olunmamasıdır. Ermənistan tərəfi müxtəlif səviyyələrdən yeni-yeni idialar irəli sürür, bunun əvəzinə Azərbaycandan hansısa pay qoparmağa çalışır. Beləliklə, ermənilər məğlub tərəf olmasına baxmayaraq həm də özünü qarşı tərəflə eyni səviyyədə göstərməyə çalışır. Amma bu yanaşmanın keçərli olmadığını özləri də yaxşı bilir. Azərbaycan qalib tərəf kimi diqtə etməlidir, gələcək qonşuluq münasibətlərini nəzərə alaraq xoşməramlı jest edir, amma ərazi bütövlüyü məsələsində heç bir güzəştin olmayacağını hər imkanda Ermənistana çatdırır. Məhz bu yanaşmanı İrəvan fərqli istiqamətə yozur və buna görə də sülh müzakirələrində gözlədiyimiz mövqeni sərgiləmir.

Ermənistanın baş naziri və parlament spikeri səviyyəsində müxtəlif platformalarda guya Azərbaycanın 31 kəndi geri qaytaracağı təqdirdə Qazağın 7, Naxçıvanın isə Kərki kəndini azad edəcəklər. Halbuki, Azərbaycan Ermənistanı nəinki bir kəndini, bir qarış torpağını belə öz nəzarətində saxlamır. İrəvanın dedikləri həmin kəndlərə yaxın yüksəkliklərin Azərbaycan ordusunun nəzarətində olmasıdır. Bu isə Ermənistanın dünya birliyi tərəfindən tanınmış ərazilərinə müdaxilə deyil, Ordumuz öz ərazilərimizdə dayanıb. Ermənistanın "güzgü prinsipi" təkliflərinin arxasında da bu istək dayanır. Ermənilər silahlı qüvvələrimizin sərhəddə dayanmasını özünə təhlükə görür. Bəs 2020-ci ilin II Qarabağ müharibəsinə qədər Ermənistan tərəfi niyə dövlət sərhədləri barədə düşünmürdü? Torpaqlarımızın 20 faizini işğal edərkən bunun beynəlxalq səviyyəli cinayət olduğunu anlamalı idi.







Bugünkü mənzərə isə Azərbaycanın Ermənistan torpağını işğal etdiyinə dair heç bir əsas vermir. Əgər belə olsaydı, bu gün də Ermənistanı qoruyan, ona hərtərəfli yardım edən, hətta İrəvanın işğalçı siyasətinə dəstək olan güclər, dövlətlər Azərbaycana qarşı təzyiqlər edər, ağır sanksiyalar tətbiq edərdilər.

Sanksiya demişkən, Azərbaycan öz ərazi bütövlüyünü beynəlxalq hüququn norma və prinsiplərinə uyğun və daha dəqiq BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrə istinadən təmin edib. Hələ orta-da, necə deyərlər, "daşdan keçən" sənədlər ola-ola Qərb dünyası haqqımızı danmağa, bizi içğalçı Ermənistanla eyni sıraya qoymağa çalışır. Avropa İttifaqı Pasrlamentinin son qərarını yada salaq. Azərbaycanı guya Ermənistan ərazilərini işğal edəcəyi bəhanəsi ilə təhdid edən Avropa Parlamenti Fransanın irticaçı siyasətinin köləsi rolunu yetərincə oynaya bildi və bizi sanksiyalarla hədələdi. Bəli, bunu "demokratiya mayası" ilə yoğrulmuş, 30 il Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına göz yuman Avropa etdi. Avropa "mülki missiya" adı altında öz kəşfiyyatçılarını sərhədlərimizə yaxın yerdə mövqelendirib. Ermənistan nə edir-etsin, kimə güllə atır-atsın, bu missionerlərin vecinə də deyil, onlar ancaq Azərbaycanın nə etdiyini güdürlər.

Ermənistanın baş naziri sözdə Azərbaycan ərazilərini tanıdığını deyir, amma 8 kəndi və onun ərazilərini nədənsə yadına salmır. Azərbaycan isə özününkündən, öz ərazilərindən imtina etməyəcəyini hər addımda qarşı tərəfə hiss etdirir. İrtəvan da bilir ki, kəndləri geri qaytarmağın alternativinin olmadığını da anlayır. Sadəcə, vaxtı uzadır ki, bud a tərəflərin maraqlarına heç cür cavab vermir. Qazanan isə Cənubi Qafqaz uğrunda savaş aparan güclər ola bilər.

## Qazağın kəndlərini necə itirdik?

Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və təcavüzü təkcə Qarabağla məhdudlaşmayaraq digər bölgələri də əhatə edib. Qarabağdan 100 km-lərlə uzaqda yerləşən Qazax rayonunun kəndləri də 1990-cı illərin əvvəlindən, artıq erməni işğalçılarının silahlı hücumlarına məruz qalırdı. Həmin dövrdə Sovet hökumətinin qərarına əsasən Qazax rayonunda olan bütün silahlar əhalinin əlindən alındı. Ermənistanla sərhəddə yerləşən Qazax rayonunda silahların kütləvi şəkildə yığılması nəticəsində yerli əhali silahlı düşmən qarşısında əliyalın vəziyyətdə qaldı. Rayonun milis şöbəsində cəmi 7 ədəd avtomat saxlanıldı ki, bu da güclü silahlarla təchiz edilən ermənilərin hücumlarının qarşısının alınması mümkünsüz edirdi. Bununla SSRİ rəhbərliyi yerli azərbaycanlılara qarşı Ermənistan silahlı qüvvələrinin törədəcəyi soyqırıma ideal şərait yaratdı.

Sual olunur, Qazağın kəndlərinin işğal olunmasına görə təkcə sovet hökumətimi günahkardır? Bəs mərkəzi hakimiyyətin əmrlərini "ləbbeyk"deyərək yerinə yetirən hakimiyyət orqanları günahsızdırlarmı? Yox, əlbəttə, həmin hadisələrin baş verdiyi dövrü bir anlığa gözümüzün qabağına gətirək. Ölkədə xaos hökm sürürdü, hakimiyyət yalnız Moskvadan gələn əmrlərə müntəzir dayanmışdı, kreslo davasına girişmiş güclər isə hər an hakimiyyətdəkilərin səhv etməsini gözləyirdi. Arada isə torpaqlar əldən gedirdi. Növbəti dönəmdə hakimiyyətə gəlmiş qüvvələrin səriştəsizliyi isə hər addımda görünürdü. Neft satıb para qazanmaq iştahası ilə hakiniyyətə gələnlər bunun nə qədər çətin olduğunu elə birinci gündən anladılar. Amma israrla hakimiyyət kreslosunda səhvlərini sıralamaqda davam etdilər. Kəndlərimiz, şəhərlərimiz birbirinin ardınca itirildi, amma "bəy"lər yenə narahat olmadılar, əksinə boğazdan yuxarı iddiaları ilə xalqı səfalətə, dövləti isə məhvə sürüklədilər. Ta ki, dövlətin sükanı əmin əllərə yetənə qədər.

Ermənistanın Voskepar adlandırdıqları, erməni millətçilərinin ən güclü dayağı olan Əskipara kəndindən Qazağın Yuxarı və Aşağı Əskipara kəndlərinə intensive hücumlar həyata keçirilirdi. Silahın olmaması yerli milislərin də tədbir görməsini əngəlləyirdi. O vaxt ətraf kəndlərə (Yuxarı Əskipara və Aşağı Əskipara) hücuma görə Sovet ordusu burada hərbi əməliyyat keçirmişdi. Oxlu sayda erməni yaraqlısı ələ keçmişdi. Amma hansısa əl həmin yaraqlıların cəzalandırılmasına mane olurdu. Qazax rayonunun Bağanıs Ayrım kəndi 1990-cı ilin martın 23-dən 24-ə keçən gecə əvvəlcədən təşkil edilən plan əsasında hücuma məruz qalmış və martın 24-ü səhər saatlarında ermənilər tərəfindən işğal edilmişdir. Bununla da Ermənilərin işğal etdiyi ilk Azərbaycan kəndi kimi tarixə düşmüşdür. İşğal zamanı Bağanis Ayrım kəndinin əli silahsız, günahsız əhalisinə qarşı tarixdə görünməmiş divan tutulmuş, 10 nəfər dünyasını dəyişmiş, 15 nəfərdən çox insan isə yaralanmışdır. 100-dən çox evi olan kənd talan olunub, əhalinin kənddən çıxara bilmədiyi ev əşyaları və mal-qara ermənilər tərəfindən mənimsənilmişdir. Xüsusi strateji əhəmiyyətli Bağanis Ayrım kəndi İcevan-Noyamberyan avtomobil yolu üzərində yerləşdiyindən düşmən gələcəkdə daha rahat hərəkət etməsi üçün bu kəndin işğalı xüsusi plan əsasında həyata keçirilmişdir. Kənddə işğal olunan zaman 600 nəfər yaşayırdı. Bağanis Ayrım kəndi Qazax rayonunun Aşağı Əskipara, Quşçu Ayrım, Xeyrimli və Məzəm kəndləri ilə həmsərhəddir. Əhalisi əsasən əkinçilik və maldarlıqla məşğul olan kəndin əsrarəngiz təbiəti, saysız-hesabsız bulaqları olub. indi Bağanis Ayrım kəndindən məcburi köçkün həyatı yaşayan insanlar Qazax rayonunda müxtəlif yerlərdə məskunlaşıblar. Barxudarlı və Sofulu kəndlərinə ermənilərin hücumu 1992-ci il aprelin 23-dən başlayıb və çətinliklə də olsa onlar bu kəndləri aprelin 27-də işğal ediblər.

1990-cı ilin martından 1992- ci illin martına qədər kiçik miqyaslı atışmalar olsa da, işğal hadisəsi baş vermədi. Lakin 1992-ci ilin martın 8-də Xeyrimli, aprelin 27-də Barxudarlı və Sofulu, iyunun 8-də Yuxarı Əskipara, həmin ayın 11-də Qızıl Hacılı, 14-də isə Aşağı Əskipara kəndləri erməni işğalçıları tərəfindən ələ keçirildi, yerli əhali təcavüzə məruz qalaraq doğma evlərini tərk etmli oldu.

Əgər həmin dövrdə erməni daşnakları layiq olduqları cəzanı alsaydılar, bu gün vəziyyət belə olmazdı. Yəni, bir qədər əvvəl Qazax rayonunun Ermənistanın işğalı altında qalan kəndlərində fəaliyyət göstərən "Döyüş qardaşlığı" qanunsuz birləşmələri Qazağın işğal altındakı kəndlərinə girib orada möhkəmlənmək istəyiblər. Amma bunun nə qədər ağır nəticəsinin olacağını göz önünə gətirən rəsmi İrəvan həmin yaraqlıların üzvlərini həbs etməli olub. Bu, sözügedən ərazidə 30 ildən çoxdur davam edən təxribatçı fəaliyyətin hələ də qaldığını göstərir.

## Kəndlər necə qaytarılacaq?

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində ölkəmizin hələ də işğal altında qalan kəndləri barədə danışıb. Dövlət başçısı bu gün işğal altında qalan səkkiz kəndin məsələsinin daim gündəlikdə olduğunu bildirib: "Bu məsələ həm mənim Ermənistanın baş naziri ilə təmaslar əsnasında müzakirə edilir, o cümlədən Sankt-Peterburqda ayaqüstü son söhbət zamanı mən bu məsələni qaldırmışdım və eyni zamanda, delimitasiya ilə bağlı komissiyaların gündəliyində də bu məsələ dayanır. Onu da bildirməliyəm ki, komissiyaların növbəti görüşü bu ay nəzərdə tutulur və orada bir mövzu olacaq: həmin o bölgənin delimitasiya məsələsi, Qazax-Tovuz bölgəsinin". Bu barədə Azərbaycan Prezidenti Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə telefon danışığı zamanı da bildirib. İlham Əliyev bu kəndlərin işğaldan azad olunmasının vacibliyini vurğulayıb.

2020-ci il sentyabrın 27-dən başlayan döyüşlər həmin kəndlərimizin də işğaldan azad edilməsi ilə nəticələnə bilərdi. Çünki, o kəndlər Azərbaycana aiddir. Amma həmin kəndlə Azərbaycan arasında erməni torpaqları var idi. Ora əkin, otlaq əraziləri olan torpaqlardır. Bunu danışıqlar və razılığa gəlməklə həll edə bilərik. Yox, razılığa gəlməsələr, nə vaxtsa, silah gücü ilə də olsa, onları azad edə bilərik. Ölkə başçısı bütün dünya ictimaiyyətinə müraciət edərək bildirib ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam şəkildə bərpa olunmalıdır. Bəziləri bu işin yarımçıq qalacağına görə narahat idi. Prezident birmənalı olaraq, bunun Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa olunana qədər davam edəcəyini qeyd edib. Ağır məğlubiyyətə uğrayan erməni ordusunun bu kəndlərdə qala biləcəyini heç kim düşünmür. Ordumuz lazım olan hər şeyi edəcək ki, həmin ərazilər bütövlükdə Azərbaycanın nəzarətinə qayıtsın. O kəndlər Azərbaycanın ərazisi olaraq dünya birliyi, beynəlxalq təşkilatlar tərəfindən tanınır. Həmin kəndlərin işğal olunduğu konkret tarixlər var. Bunları hətta Ermənistan da danmır. Odur ki, kəndlər mütləq azad ediləcək. Bu kəndlərin məsələsi sərhədlərin delimitasiya və demarkasiya prosesi zamanı müəyyənləşəcək.



Ermənilər kəndlərin onlara məxsus olmadığını bilir, amma vaxtı uzatmaqla əsəbləri tarıma çəkmək, Azərbaycanı hövsələdən çıxarmaq və müharibəni Ermənistan daxilinə çəkməyə çalışırlar. Eyni zamanda qeyri-regional güclərin əli ilə həmin ərazilərdən keçən maqistral yollara nəzarəti itirməmək üçün manevrlər edirlər. Amma Ermənistan beynəlxalq qanunlara, qaydalara və tələblərə əməl etməyə borclu olduqlarını da unutmamalıdırlar. Əks halda onlarla öz dillərində danışmaq lazım gələcək.

**V.VƏLİYEV**

# Düşmən dəyirmanına su tökən XƏYANƏTKAR

Müxalifət düşərgəsində təmsil olunmaq, müxalifətçi olaraq siyasi fəaliyyətlə məşğul olmaq heç də dövlət əleyhinə fəaliyyət göstərmək demək deyil. Yaxud, dövlətə xəyanət yolunu tutanlar bunu müxalifətçilik fəaliyyəti hesab edirlərsə, bərk yanılırlar və ciddi səhvə yol verirlər. Dəfələrlə qeyd edilib və xatırladılıb ki, dünya təcrübəsindən də göründüyü kimi, heç bir ölkə müxalifəti dövlət əleyhinə fəaliyyət göstərməyib və göstərmir də. Əksinə, hər bir ölkə müxalifəti öz proqramı, öz təklifləri ilə çıxış edir və əməli fəaliyyəti ilə dövlətə dəstək olmaq, cəmiyyətin inkişafına öz töhvəsini vermək üçün fəaliyyət göstərir. Sözsüz ki, həmin ölkənin vətəndaşları da bu fəaliyyətləri görürlər və lazım olduğu məqamda qiymətləndirirlər. Təəssüf ki, Azərbaycanda bəzi radikal müxalifətçilər hələ də bunu başa düşə bilmirlər, ölkəmizə, dövlətimizə, cəmiyyətimizə qarşı düşmən mövqedən çıxış edirlər və məhz bu səbəbdən də haqlı olaraq, ictimai rəydə onlara qarşı yalnız nifrət hissinin olduğu müşahidə edilir.

Uzun illərdir ki, ölkəmizdə radikal müxalifətin hansı mahiyyət kəsb etdiyini cəmiyyətimiz çox yaxşı bilir. Radikal müxalifətin "nəyin uğrunda", "nəyin naminə" çalışdığını və cəmiyyətimiz, dövlətimiz üçün heç bir səmərəli fəaliyyət göstərmədiyini xalqımız hələ ötən əsrin sonlarından yaxşı xatırlayır. Ölkə daxilində xaos, hərcmərcilik, qarışıqlıq salmaq üçün əlindən gələni edənlərin özlərini müxalifət adlandırması və əslində isə, belə yanlış və xəyanətkar mövqeləri, fəaliyyətləri ilə düşmən dəyirmanına su tökmələri bizə çoxdan bəllidir. Özlərini pafoslu şəkildə xalq üçün çalışan kimi göstərənlərin əslində, Azərbaycan əleyhinə olan qüvvələrin marioneti kimi fəaliyyət göstərdikləri dəfələrlə öz təsdiqini tapıb. Azərbaycan əleyhinə olan hansısa xarici qüvvələrin qrantlarına, ayırdıqları vəsaitlərinə görə əldən-ayaqdan gedən, dövlətimiz, ölkəmiz əleyhinə bütün xəyanətlərə əl atanlarla bağlı kifayət qədər faktlar var və bütün bunlar cəmiyyətimizə də bəllidir. Ölkəmiz, cəmiyyətimiz, dövlətimiz əleyhinə belə xəyanətkar mövqedən çıxış edənlərdən biri də Qubad İbadoğlu kimi tanıdığımız, qeyri-rəsmi fəaliyyət göstərən Azərbaycan Demokratik Rafah Partiyasının (ADRF) sədri Bayramov Qubad İbad oğludur və onun fəaliyyətinin də məhz düşmən dəyirmanına su tökməkdən ibarət olduğu dəfələrlə üzə çıxıb.

### Qubad İbadoğlu kimdir?

Müsavat Partiyasının divan üzvü olan, 2014-cü ilin sentyabrında partiyanın sədrliyinə keçirilən seçkilərdə iştirak edərək 228-ə qarşı 200 səs toplayaraq Arif Hacılıya məğlub olan, 2015-ci il fevralın 6-da Müsavat Partiyasından xaric edilən Qubad İbadoğlu radikal müxalifətçilərin ən uğursuzudur. O, müxalifət düşərgəsində belə heç vaxt birincilər sırasında olmayıb. İbadoğlu öz fəaliyyətinin əsas istiqamətini Müsavat partiyası üçün iqtisadi konsepsiyalar hazırlamağa həsr edib. Bunun müqabilində isə partiyada nəinki birinci və ikinci postları tuta bilməyib, heç sabiq başqanın 8 müavinindən biri olmağı da bacarmayıb. Qubad İbadoğlunun ən böyük "mükafatı", ən böyük "nailiyyəti" Müsavat Partiyasının Divan üzvü seçilmək olub. Sabiq Müsavat başqanı İsa Qəmbər o vaxtlar xeyli gənc olan həmyerlisi Qubadı müavin postuna irəli çəkməyi belə heç vaxt ağlına da gətirməyib.

Müsavat başqanı postundan 2014-cü ildə istefa verəndən sonra İsa Qəmbərlə İbadoğlu arasında ziddiyyətlərin açıq müstəviyə keçdiyini də yaxşı xatırlayırıq. Onu da yaxşı xatırlayırıq ki, İsa Qəmbər tərəfsizliyini qoruyacağını bəyan etsə də, partiyanın 27 sentyabr 2014-cü il tarixində keçirilən Qurultayında müavini Arif Hacılını, yəni, şəxsən Qubad İbadoğlunun əsas rəqibi sayılan şəxsi dəstəkləyib. Çox gözəl bilirik ki, Arif Hacılı da öz növbəsində, Müsavat başqanı seçiləndən sonra rəqibinə, Q.İbadoğluna qapını göstərib və o partiyadan qovulub. Partiyadaxili intriqalara, çəkişmələrə meylli olan həmin o qovulan şəxs də ətrafına Vurğun Əyyub, Adil Qeybulla, Səxavət Əlisoy kimilərini toplayaraq, Müsavat Partiyasının sosial bazası hesabına yeni siyasi təşkilat yaradacağına dair proqnozlar səsləməyə başlayıb. Amma onun pul qazanmaq üçün müxtəlif xarici ölkələrə üz tutması bu proqnozların doğrulmasını mümkünsüz edib və 2-3 il əvvəl ADRP-ni elan edən həmin o İbadoğlu onlayn iclaslar keçirməkdən başqa addım ata bilmədiyi, başqa işlər görə bilmədiyi üçün partiyasını da irəli apara bilməyib. İnternet televiziyası resurslarında vaxtaşırı hakimiyyət əleyhinə sərt çıxışlar etməklə gündəmdə qalmağa çalışan bu uğursuz, zəif təşkilatçı olduğu üçün ətrafındakı adamları da qoruyub saxlaya bilməyib və onlar da həmin uğursuzu davamlı olaraq, tərk etməkdədirlər. Qubad İbadoğlunun rəhbərlik etdiyi və qeyri-rəsmi fəaliyyət göstərən partiyanın cəmi 5-6 nəfərdən ibarət olan rayon təşkilatları isə iclas adı ilə hansısa bir məkanda, bəzən də çayxalanada oturub "məşvərət" etməklə işlərini bitmiş, "öhdəliklərini" başa vurmuş hesab edirlər, hansıki, sosial şəbəkələrin Azərbaycan seqmentində bunu sübut edən kifayət qədər foto və videogörüntülər də mövcuddur.




### Qərb niyə indi də Qubad İbadoğlunu sırımağa çalışır?

Qərb artıq belə bir qənaətə gəlib ki, Azərbaycandakı Qərbyönümlü şəbəkə onların "ümidlərini" doğrulda bilmir. Görünür, şəbəkənin başında dayanan AXCP sədri Əli Kərimlinin son 20 ildə heç bir ciddi siyasi uğur qazana bilməməsi Qərb dairələrində onun perspektivsizliyi barədə ciddi rəy formalaşdırıb. AXCP sədrinin də uğursuzluğu artıq donor təşkilatları tərəfindən qəbul edilib və bu arada yeni bir xəyanətkarı "işə cəlb etmək" planı ortaya çıxıb. Amma, sual yarana bilər ki, niyə məhz Qubad İbadoğlu? Başda ABŞ olmaqla Qərbin məhz İbadoğluna diqqəti yönəltməsinin əsas səbəbi nədən ibarətdir? Təbii ki, bunun səbəbləri olmaya bilməz və biz bilirik ki, səbəbsiz yerə Qərb belə bir fikrə düşməz.

Şəxsən Qubad İbadoğlunun tərəfdarları iddia edirlər ki, AXCP sədri Əli Kərimlidən fərqli olaraq, ADRP sədri AXC-Müsavat iqtidarının "şinel"indən çıxmayıb və onunla bağlı Qərbə qarşı hansısa ittihamlar yersiz sayıla bilər. Bununla yanaşı iddia edilir ki, Qubad İbadoğlunun məhz Əli Kərimlidən fərqli olaraq, xarici dil bilgiləri yetərincədir. Hətta zənn edilir ki, Əli Kərimlinin xarici dil bilgilərinin yetərsiz olması fonunda, İbadoğlu rus və ingilis dillərini akademik səviyyədə bilir və məhz buna görə də o, Qərb dairələri üçün daha cəlbedici görünür. Üstəlik, qeyd olunur ki, ADRP sədri iqtisadçıdır, Qərbyönümlü liberal dəyərləri guya yaxşı mənimsədiyi üçün gələcəkdə onunla əməkdaşlıq etmək perspektivləri daha böyükdür.

Sözsüz ki, bütün bunlar İbadoğlunun 3-5 nəfər tərəfdarının şişirtməsindən başqa bir şey deyil. Onun hansısa xüsusi qabiliyyət sahibi olduğu barədə kimdəsə bir məlumat yoxdur. Heç də onu digər xəyanətkarlardan fərqləndirən, üstün edən bir məqama ən azından biz rast gəlməmişik. Məsələ burasındadır ki, artıq Əli Kərimli, Cəmil Həsənli kimi fiqurlardan istifadə etməyin mənasız olduğu qənaətinə gələn Qərb indi də şəbəkəsini Qubad İbadoğlu üzərindən qurmaq niyyətinə düşüb. Burada Əli yox, Qubad olmasının Qərb üçün bir o qədər də fərqi yoxdur. Qərb üçün fərq edən ancaq onların hansının daha xəyanətkar olması və pul, vəsait müqabilində fəaliyyət göstərməyə maraq etməsidir. Həm də Kərimlini bu vaxta qədər alət edən Qərb üçün məhz İbadoğlu kimi başqa bir aləti də ələ keçirmək cəhdi başadüşüləndir. Üstəlik, AXCP sədrinin rəhbərliyi altında Qərbin bu qədər cəhdlərinin fiaskoya uğraması fonunda daha bir cəhdini başa düşmək heç də çətin deyil. Heç şübhəsiz ki, Qubad İbadoğlunu da alət olaraq seçən Qərb tezliklə yenə də ifşa olunacaq, amma qeyri-rəsmi fəaliyyət göstərən Azərbaycan Demokratik Rafah Partiyasının sədri daha böyük nifrət qazanmış olacaq.

### Qubad İbadoğlu ilə əlaqədar paradoks

Bir neçə nəfərdən ibarət tərəfdarının onu guya "beynəlxalq miqyaslı alim, dünya şöhrətli iqtisadçı" kimi göstərməsinə baxmayaraq, başladılan petisiyadan iki ay keçdiyikdən sonra belə, hələ o dövrdə Qubad İbadoğlu ilə bağlı petisiyanı imzalamaq üçün 1500 adam belə tapılmamışdısa, bunun nəyi "dünya şöhrətli" ola bilər axı? İki ay ərzində 1500 tərəfdar toplaya bilməyən biri haqqında bu qədər şişirtmələr ancaq gülünc səslənə bilər. Sosial şəbəkələrin yerli və xarici seqmentində qoparılan "hay-küyün" artıq "anatomiyası" da bizə bəllidir. Bir neçə pafoslu söz yığınından ibarət rəyin sosil şəbəkədə bildirilməsi hələ heç də Qubad İbadoğlu ilə bağlı fikir formalaşdırmağa kifayət etmir. Əksinə, İbadoğlu ilə bağlı dezinformasiya kononadası təsdiq edir ki, onu şişirtmək üçün bütün vasitələrə əl atılır və bu heç də hansısa bir siyasi fiqur üçün arzuolunan hesab edilə bilməz.

Dünyamız artıq elə bir inkişaf dövründədir ki, təkcə internet resursları ilə istənilən məlumatı almaq imkanımız var. Belə bir şəraitdə, yəni informasiya əldə etmək imkanlarının "əl atında" olduğu məqamda qeyri-rəsmi fəaliyyət göstərən Azərbaycan Demokratik Rafah Partiyasının sədri Qubad İbadoğlu ilə bağlı apologiyaları yoxlamadan keçirməyin nə dərəcədə asan olduğunu hər kəs çox yaxşı başa düşür. Elə isə nəyə görə həmin uğursuz bu qədər şişirdilir və həmin "şişirtmə" ilə reallıq arasındakı paradoks heçmi görünmür? Çox yaxşı görünür, amma ən çox görünən odur ki, Qərb dairələri özləri bunu görməməzliyə vurmağı məqbul hesab edirlər. Çünki, hesab edirlər ki, bu dəfə onların işində məhz İbadoğlu yaraya bilər, amma bu dəfə də bərk yanılırlar. Hər halda, öz dövlətinin, öz ölkəsinin, öz xalqının şanlı Zəfərindən sonra Qərbin öz düşmən mövqeyini necə artırdığını görməyən, yaxud, görməməzliyə vuran, hətta ermənilərin beynəlxalq miqyasdakı mütəşəkkil şəkildə anti-Azərbaycan fəaliyyətinə alət olmağı qəbul edəndən hansısa gözlənti ağılsızlıqdır.

İbadoğlunu süddən çıxan ağ qaşıq kimi göstərmək istəyənlərin də nəzərinə çatdırmaq istərdik ki, onların "bəzəmələri", "şişirtmələri" ilə bəzi məqamlar qətiyyən üst-üstə düşmür. Məsələn, onun kimi digər alim və tədqiqatçılar da təsdiq edə bilərlər ki, bir tədqiqatçı əmək haqqısı ilə Qubad İbadoğlu Novxanıda bağ evi ala bilməz. Hazırda onun ranqında olan bir çox tədqiqatçı hələ də şəxsi ev arzusundadır və bunun fonunda isə qeyri-rəsmi fəaliyyət göstərən partiya sədrinin şəxsi evi də, bağ evi də var. O zaman sual oluna bilər ki, hardandır bu vəsaitlər. Əgər ortada qrantlar olmasa idi İbadoğlu hansı vəsaitlər hesabına bunları əldə edə bilərdi axı? Üstəlik, Qubad İbadoğlu axı professor da deyil və heç vaxt da olmayıb. Elmi ad və dərəcələri necə gəldi, buna əsas verən müvafiq rəsmi sənədə malik olmadığı halda özünə aid etməklə mənimsəməyə çalışıb və bu da əlbəttə ki, bir şəxsin mənəvi-etik prinsiplərə "münasibətindən" xəbər verir.

### FETO və erməni təşkilatları ilə birlikdə fəaliyyət xəyanətkarlıq nümunəsidir

Bilirik ki, Daxili İşlər Nazirliyinin açıqlamasında da qeyd olunduğu kimi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Türkiyə Respublikasının Daxili İşlər Nazirliyindən daxil olan məlumat əsasında ölkəmizdə FETÖ ilə əlaqəli olan şəxslərə qarşı əməliyyat tədbirləri keçirib. Həmin tədbirlər zamanı saxlanılan 5 nəfərdən biri Q.İbadoğlu ilə əlaqəsinin olması barədə ifadə verib. Həmin ifadə əsasında onun ofisində axtarış aparılıb, iş üzrə zəruri əhəmiyyət kəsb edən sənədlər aşkarlanıb və Qubad İbadoğlu saxlanılıb. Diqqətə çatdıraq ki, Qubad İbadoğlu 2008-2009-cu tədris ilində ABŞ-ın Şimali Karolina Universitetində çalışıb və bu universitetin adı daim FETÖ üzvlərinə yaxınlığı ilə tanınıb, hallanıb. Üstəlik onun fəaliyyətində məhz FETO ilə əlaqələrin olmasını təsdiq edən faktlar ortaya çıxıb. Belə çıxır ki, Qubad İbadoğlu heç də yerində dinc dayanmayıb və terrorçu təşkilata da qoşulmağa imkan tapıb. Onun hətta erməni təşkilatları ilə, hansısa digər Azərbaycan əleyhinə olan təşkilatlarla əlaqələri də müəyyən olunub. Belə olan halda, onun "kimliyi" artıq özünü biruzə vermiş olur.

İbadoğlunun kimliyi heç də onun barəsində uydurulanlarla üst-üstə düşmür. Əksinə, olduqca paradoksal görünür. Qubad İbadoğlunun təkcə Azərbaycan əleyhinə olan qüvvələrlə deyil, həm də ümumiyyətlə türk dünyasının əleyhində olanlarla əlaqələri onun düşmən mövqeyindən xəbər verir. Həmçinin, onun satıldığını, vəsaitlər, qrantlar müqabilində özünə xəyanəti rəva bildiyini göstərir. Belə birindən Qərbin istifadə etməsini sözsüz ki, başa düşməmək artıq mümkün deyil. İslamafobiyanın, türkofobiyanın artdığı bir məqamda, Azərbaycana qarşı Qərbin öz imkanlarını səfərbər etdiyi bir zamanda Qərb üçün Qubad İbadoğlu kimi xəyanətkarlar göydən düşmə hesab olunur. Buna görə də ona Qərbin meyl etməsi tamamilə başadüşüləndir. Amma başa düşülməyən onun vətənini satması, bütün bunları, sadalananları qəbul etməsi, düşmən dəyirmanına su tökən xəyanətkarlığıdır...

***İnam Hacıyev***

# 31 mart 1918-ci il soyqırımı gerçəkləri

"Bakıda soyqırımının törədilməsinin başlıca səbəblərindən biri Azərbaycanın müstəqilliyinin qarşısının alınması idi"




Millət vəkili, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlının SİA-ya müsahibəsini təqdim edirik:

***- Artıq 31 mart soyqırımından 106 il ötür. Azərbaycan bu il 31 mart soyqırımını necə anır?***

- 31 mart soyqırımı qurbanlarının xatirəsini bu il tamamilə fərqli bir şəraitdə anırıq. 1988-ci ildən bəri ilk dəfə olaraq Prezident İlham Əliyevin liderliyində dövlət suverenliyimiz bütün ölkə ərazisində tam bərqərar, Ermənistanın və



dünya erməniliyinin "Miatsum" xəyalları və separatizmi isə məhv edilib. Bu möhtəşəm hadisə ilə 1918-ci il 31 mart soyqırımı qurbanlarının da ruhu şaddır. Qazanılan qələbə tarixi keçmişimizi unutmamağı bizə zəruri edir.

***- Soyqırımına qədərki şəraitə qısa bir nəzər salaq... 1918-ci il 31 mart hadisələri necə olub?***

- Birinci Dünya müharibəsinin sonlarına yaxın, 1918-ci ilin mart ayında yaranmış mürəkkəb şəraitdə Azərbaycanın müxtəlif yerlərində erməni-daşnak və bolşevik dəstələri birlikdə azərbaycanlı əhalini kütləvi qırğınlara, soyqırımına məruz qoydular. Şərqi Anadoluda mülki türk, müsəlman əhaliyə qarşı törətdikləri qırğınlar üçün cəzasız qalmayacaqlarından qorxan erməni-daşnak dəstələri rus Qafqaz cəbhəsi dağıldıqdan sonra ordu hissələri ilə birlikdə Cənubi Qafqaza gəldilər. Bu zaman anarxiyanın hökm sürdüyü regionda Müvəqqəti hökumətin orqanları, sovetlər və milli şuralar fəaliyyət göstərirdilər. Qafqaz cəbhəsindən qayıdaraq Bakıdan keçib Rusiyaya getməli olan rus əsgərləri yol boyu Azərbaycan kəndlərini talan edir, aclıq və səfalət içərisində olduqlarından Bakı Sovetinin xidmətində qalmağı vətənə dönməkdən üstün tuturdular. Ordu silah və sursatını ermənilərə və Bakı bolşeviklərinə vermişdi.

Kütləvi qırğınların, soyqırımlarının coğrafiyası geniş olub, 1917-ci ilin payızından etibarən Cənubi Qafqazda - tarixi Azərbaycan torpağı olan İrəvan quberniyasını-indiki Ermənistan Respublikası ərazisini, Cənubi Azərbaycanı, Tiflis quberniyasının Borçalı qəzasını və indiki Azərbaycan Respublika ərazisini əhatə edirdi. Erməni silahlı qüvvələri tərəfindən dinc azərbaycanlı əhaliyə qarşı törədilən kütləvi qırğınların zirvə nöqtəsi 1918-ci ilinmartında oldu. Martın 30-da axşamüstü S. Şaumyan başda olmaqla Bakı Soveti və erməni-daşnak dəstələri tərəfindən dinc türk və müsəlman əhaliyə qarşı soyqırımına başlandı.

***- Sizcə, soyqırımın səbəbləri nələr idi?***

- Soyqırımının törədilməsinin bir sıra səbəbləri var idi. Hər şeydən əvvəl, hələ I Pyotr zamanından başlayaraq çarizm Xəzər dənizinin şimal sahillərini, həmçinin Bakını işğal edib öz tərkibinə daxil etmək üçün guya Bakıda Azərbaycanın digər yerlərindən fərqli mədəniyyət olduğunu bildirirdi. Hətta "Bakı və Azərbaycan" ifadələri də məqsədli şəkildə dövriyyəyə buraxılmışdı. İsti dənizlərə çıxmaq üçün apardığı işğalçı müharibələr nəticəsində Azərbaycanı bölüşdürdükdən sonra Cənubi Qafqaza ermənilərin yerləşdirməklə çarizm təkcə demoqrafik vəziyyəti dəyişdirmədi, eyni zamanda onları Şərq siyasətində bir vasitəyə çevirdi. Bu siyasəti çarizm devrildikdən sonra qurulan Müvəqqəti hökumət, ondan sonra hakimiyyətə gələn bolşeviklər də davam etdirdilər. 1917-ci ilin noyabrında Bakıda S. Şaumyan başda olmaqla azərbaycanlıların əleyhinə olan sovet hakimiyyəti quruldu. V. İ. Lenin həmin ilin dekabrında S.Şaumyanı Qafqazda xüsusi səlahiyyətli komissar təyin etdi.

İqtisadi baxımdan Bakı bolşevik Rusiyası üçünböyük əhəmiyyət kəsb edirdi. Dünya müharibəsinin son mərhələsində Yaxın, Orta Şərq və Cənubi Qafqazda iki əsas neft mənbəyi uğrunda hərbi əməliyyatlar aparılırdı. Bunlardan biri Mosul, digəri isə Bakı neft mənbəyiidi. Heç əbəs deyildir ki, 1918-ci il mart ayının ikinci yarısında V. İ. Lenin ABŞ-ın Qırmızı Xaç nümayəndəliyinin rəhbəri polkovnik R. Robinsonun "Rusiya Sovet Respublikası üçün Bakının iqtisadi əhəmiyyəti nədədir" sualına "Bu - neft, işıq və enerjidir", - deyə cavab vermişdi.



Əlverişli coğrafi-siyasi mövqedə yerləşən Bakıda bütün Cənubi Qafqazın taleyi həll olunurdu. Artıq qeyd edildiyi kimi, bu zaman Cənubi Qafqazda bir-birilərinə əks olan Müvəqqəti hökumətin orqanları, sovetlər və milli şuralar fəaliyyət göstərirdilər.

Bakıya hakim olmaq bütün Cənubi Qafqaza nəzarət qazanmağa imkanı verər, Tiflisdə fəaliyyət göstərən antibolşevik Transqafqaz Komissarlığının süqutuna kömək edərdi. Digər tərəfdən, Bakıya yiyələnmək Xəzər dənizinə, Şimali Qafqaza və "dünyanın ürəyi" olan Avrasiyaya gedən yola nəzarət etmək imkanı verərdi. Dünyanın ürəyinə gedən yol Bakıdan, Azərbaycandan keçirdi.

Bakıda soyqırımının törədilməsinin başlıca səbəblərindən biri Azərbaycanın müstəqilliyinin qarşısının alınması idi. Bu zaman azərbaycanlılar əvvəlcə muxtariyyət, sonda isə müstəqillik uğrunda mübarizə aparırdılar. Soyqırımının törədilməsinin digər bir səbəbiəhalisi əsasən türk və müsəlmanlardan ibarət olan Cənubi Qafqaza, xüsusən BakıyaOsmanlı ordusunun buraxılmaması üçün Bakı və Bakı quberniyasını yerli, aborigen əhalidən təmizləmək idi. Bu zaman Cənubi Qafqazda yaşayan təqribən 6 milyon nəfər əhalinin təqribən 3 milyon nəfəri türk,müsəlman idi.

Azərbaycan əhalisi silahlı düşmən qarşısında əliyalın qalmışdı. Bakıda və onun ətrafında azərbaycanlıların silahlı qüvvəsi demək olar ki, mövcud deyildi. Bunun da başlıca səbəbi çarizmin türk, müsəlman olduqları üçün azərbaycanlıların hərbi xidmətə çağırılması ilə bağlı idi.

S. Şaumyan erməniləri və bolşevikləri, xüsusən Xəzər hərbi dəniz donanmasının motroslarını müsəlmanlara qarşı soyqırıma təhrik edirdi. Hücum üçün bir bəhanə lazım idi. Belə bir bəhanə müsəlman diviziyasının Lənkəranda həlak olan silah yoldaşları, böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmmədin cənazəsini "Evelina" gəmisi ilə Bakıya gətirən bir qrup zabit və əsgərinin Bakı Sovetinin hərbçiləri tərəfindən tərksilah edilməsi oldu. Müsəlman diviziyasının əsgər və zabitləri silahların geri qaytarılmasını tələb etsə də, nəticəsi olmadı. S.Şaumyanla aparılan danışıqlar da uğursuz olduqdan sonra xalq küçələrə çıxıb silahların qaytarılmasını tələb etdi. Sosial dayağı olmayan bolşevik hökumətinin rəhbəri S. Şaumyan azərbaycanlılara divan tutmaq haqqında əmr verdi.

***- Bəs, bu dəhşətli soyqırım necə həyata keçirildi?***

- Martın 30-da axşam saat 5-də Bakıda ilk atəş açıldı. Qırğın başlananadək özlərinin bitərəfliyini elan etmiş Daşnaksütyun və Erməni Milli Şurası, o cümlədən erməni kilsəsi Bakı Sovetini müdafiə etdi. Nəinki silahlı erməni əsgərləri, habelə erməni ziyalıları da Bakı Soveti tərəfindən döyüşə qatıldılar. S. Şaumyan bu hadisə ilə bağlı olaraq yazırdı ki, bizim süvari dəstəyə ilk silahlı hücum cəhdindən bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik. Bizim artıq 6 min nəfərə qədər silahlı qüvvəmiz var idi. Həmçinin Daşnaksütyunun 3-4 minə qədər milli hissələri var idi. Onlar da bizim sərəncamımızda idi. Daşnaksütyunun iştirakı vətəndaş müharibəsinə milli qırğın xarakteri verdi və bundan yayınmaq mümkün deyildi. Biz buna şüurlu olaraq getdik, çünki əgər onlar Bakıda qələbə qazansaydılar, şəhər Azərbaycanın paytaxtı elan ediləcəkdi.

Soyqırımı xüsusi qəddarlıqla həyata keçirildi. Şəhər yerdən və havadan bombardman edildi. Dinc azərbaycanlı əhali diri-diri su və neft quyularına, yanar təndirlərə atılır, hamilə qadınların qarınları süngü ilə deşilir, körpə uşaqlar divarlara mıxlanır, qadınlar hörüklərilə bir-birinə bağlanaraq küçələrdə çılpaq gəzdirilirdi. Silahlı dəstələr uşaqlara, qocalara və qadınlara rəhm etmirdilər.

*Ardı Səh. 12*

# 31 mart 1918-ci il soyqırımı gerçəkləri

## "Bakıda soyqırımının törədilməsinin başlıca səbəblərindən biri Azərbaycanın müstəqilliyinin qarşısının alınması idi"

Əvvəli Səh. 11

Adamlardan siyasi mənsubiyyət soruşulmurdu. Öldürmək üçün "türk, müsəlman" olmaq kifayət edirdi. Mart soyqırımının şahidi olan Azərbaycan tarixçisi R.İsmayılov yazırdı: "İş o yerə çatmışdı ki, daşnaklar "biz, bolşevik, sosialist bilmərik, müsəlmansan, kifayətdir", - deyə hətta müsəlman sosialistlərini belə qırdılar...".

Soyqırımının gedişində azərbaycanlılara məxsus ictimai binalar, milli rəmzlər və mədəniyyət ocaqları dağıdıldı. "Açıq söz", "Kaspi" qəzetlərinin redaksiyaları, fəaliyyətini bütün Cənubi Qafqaza yayan və müharibə zamanı Qafqaz cəbhəsində hərbi əməliyyatlar meydanında böyük iş aparan, azərbaycanlıların ictimai hərəkatında mühüm rol oynayan Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi "İsmailiyyə" binası yandırıldı. Təzəpir məscidinin minarələri zədə aldı. Qüvvələr bərabər olmadığı üçün martın 31-də azərbaycanlılar döyüşü dayandırmağa məcbur oldular. Buna baxmayaraq, azərbaycanlıların öldürülməsi davam etdirildi. Qırğınlar yalnız aprelin 2-də dayandırıldı.

***- Soyqırımının nəticələri barədə avropalılar və amerikalılar nə dedilər?***

- Bakıda törədilən soyqırımının ağır nəticələri oldu. Regiona səfər edən ABŞ-ın Harbord missiyasının hesabatında yazılırdı ki, ermənilər 1918-ci ilin martında Bakıda 2 min azərbaycanlını öldürdülər. İndianapolisdən olan amerikalı alim Leonard Ramsden Hartill yazır ki, ermənilər Bakıda 25 min müsəlmanı qətlə yetirdilər. Mart qırğınından bəhs edən ABŞ tarixçiləri Boqdan Nahoylo və Vinter Svoboda yazırlar ki, 20 min döyüşçünün iştirak etdiyi bu toqquşma Bakıda 3 min nəfərin həyatına son qoymaqla Sovetin qələbəsi ilə nəticələndi.

ABŞ tədqiqatçıları C.Makkarti və K.Makkarti 1918-ci il martın 30-dan aprelin 1-dək Bakıda ermənilərin 8 mindən 12 minədək müsəlman öldürdüyünü və şəhərin türk əhalisinin yarısının qaçdığını yazırlar. Böyük Britaniya nümayəndələrinin 1918-ci il aprelin 9-da Bakıdan göndərdikləri teleqramda yazılırdı ki, ermənilər bolşeviklərlə birləşərək özlərinə irqi düşmən hesab etdikləri azərbaycanlılara qarşı qırğınlar törətdilər. İngilis mənbələrində yazılır ki, mart ayında Bakıda müsəlman əhalinin dörddə biri öldürüldü. Həmin dövrün statistik məlumatlarından aydın olur ki, bu zaman Bakıda təqribən 280-300 min nəfər əhali yaşayırdı. Onun təqribən 80-100 min nəfəri azərbaycanlı, digərləri isə çarizmin müstəmləkə siyasəti nəticəsində şəhərə yerləşdirilənlər idi. Deməli, 80-100 min nəfər azərbaycanlı əhalinin dörddə biri 20-25 min nəfər edir. Bu rəqəm bəzi amerikan mənbələrində yazılanlar ilə eyniyyət təşkil edir.

***- Bu barədə Azərbaycan mənbələrində nə yazılır?***

- Müxtəlif siyasi cərəyanların maraqlarını əks etdirən Azərbaycan mənbələrində də öldürülənlər barədə çoxlu məlumatlar vardır. Məsələn, partiya mənsubiyyəti baxımından bolşevik olan N.Nərimanov 1918-ci il mayın 23-də çap olunmuş "Vətəndaş müharibəsinin milli rəng almaması üçün nə etmək lazımdır" adlı məqaləsində aşağıdakıları etiraf edirdi: "Fanatizmdən uzaq olan hər bir şəxsə məlumdur ki, Zaqafqaziyada gedən vətəndaş müharibəsində 99 faiz bir millətin nümayəndələri qırılır. İrəvan quberniyası, Lənkəran qəzası, Quba, Şamaxı bölgələri mənim dediklərimi tamamilə təsdiq edir". N.Nərimanov daha sonra 1919-cu ilin fevralında yazdığı "Biz Qafqaza hansı şüarla gedirik" və "Qafqazın işğalına baxış" adlı məqalələrində yazırdı ki, bolşevizm şüarları altında daşnaklar müsəlman əhaliyə zülm etdilər. Belə şəraitdə sovet hökuməti Bakıda vətəndaş müharibəsinə başlamağa qərar verdi. Vətəndaş müharibəsi adı altında Bakıda qanlı hadisələr törədildi. Bakıda sovet hakimiyyəti daşnakların əlində alət idi.

Azərbaycan Cümhuriyyəti hökumətinin yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının sənədlərindən aydın olur ki, Bakıda ermənilər mart hadisələri zamanı dinc müsəlman əhalini siyasi mənsubiyyətə fərq qoymadan kütləvi qırmışlar. Digər mənbələrə əsasən, martda yalnız Bakıda 10, 12 və 15 mindən artıq azərbaycanlınınöldürülmüşdür. Kütləvi qırğınlar yalnız Bakı ilə məhdudlaşmadı. Azərbaycanın və Cənubi Qafqazın digər yerlərində də azərbaycanlılara qarşı qırğınlar törədildi. ABŞ kəşfiyyat mənbələrinə görə, Cənubi Qafqazda qırğınlar zamanı 60 min Azərbaycan türkü qaçqına çevrildi və 420 müsəlman kəndi dağıdılıb.

***- Soyqırımını törədənlər istəklərinə nail ola bildilərmi?***

- Erməni-daşnakların və bolşeviklərin soyqırımı törətməkdə başlıca məqsədi Azərbaycanın muxtariyyətinin və müstəqilliyinin elan edilməsinə yol verməmək, Bakı neftinə, Xəzər dənizinə yiyələnmək, Orta Asiyaya gedən yola nəzarət etmək, Cənubi Qafqazı əldən buraxmamaq idi. Lakin onlar istəklərinə nail ola, Azərbaycan xalqının iradəsini qıra bilmədilər. Bu hadisələr Azərbaycan xalqının müstəqilliyinin elan edilməsini ləngitsə də, istiqlal mübarizəsini dayandıra bilmədi. Mayın 28-də Azərbaycan xalqı bütün müsəlman Şərqində dəfə olaraq respublika idarə üsulunu qurdu. Respublika məfkurəsini müsəlman Şərqinə məhz Azərbaycan xalqı gətirdi, müsəlman xalqlarına müstəmləkəçilikdən xilas olmaq yolunu, nümunəsini göstərdi, onların yoluna çıraq tutdu. Bakı sentyabrın 15-də azad edildi. Azərbaycan hökuməti tarixi şəhərimiz olan Bakıya köçdü. Azərbaycan nefti yadelli qüvvələrin əlindən alındı. Azərbaycan xalqı taleyinin və torpağının sahibi oldu.

***- Azərbaycanın verdiyi qiymət nədən ibarət oldu?***

- Cümhuriyyət hökuməti bu hadisələrin təhqiqi məqsədilə 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiyada çalışanlar əsasən ruslar, yəhudilər və digər millətlərin nümayəndələri mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı və vəsait ayrıldı.

31 mart tarixi iki dəfə- 1919 və 1920-ci illərdəCümhuriyyət hökuməti tərəfindən ümummilli matəm günü kimi qeyd edildi. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Cümhuriyyətin süqutu bu işin başa çatdırılmasına imkan vermədi. Azərbaycan xalqının ümummilli lideri, Prezident Heydər Əliyevin 1998-ci il 26 mart tarixli sərəncamı ilə 31 mart azərbaycanlıların soyqırımı günü elan edildi. Cümhuriyyət hökuməti soyqırımı qurbanlarının dəfn edildiyi Çəmbərəkənd qəbiristanlığında onların xatirəsinə abidə qoymağı planlaşdırsa da, bolşevik işğalı bu niyyətin də gerçəkləşdirilməsinə mane oldu. Prezident Heydər Əliyevin Bakı şəhərində Şəhidlər xiyabanında Əbədi məşəl abidə kompleksinin ucaldılması haqqında 1998-ci il 5 avqust tarixində sərəncamına uyğun olaraq həmin ilin oktyabrın 9-da kompleks açıldı. 2007-ci ildə Prezident İlham Əliyevin sərəncamına əsasən Şəhidlər xiyabanı yenidən qurularkən Əbədi məşəl abidəsinin sütunları hündürləşdirildi və digər işlər görüldü.

Azərbaycanlılara qarşı törədilmiş soyqırımları haqqında tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində böyük işlər Prezident İlham Əliyevin "hücum diplomatiyası" xəttini elan etməsindən sonra görüldü. Bu baxımdan birinci vitse prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun fəaliyyətinin müstəsna əhəmiyyət daşıyan fəaliyyəti vardır.

***- Son olaraq bu soyqırımdan alacağımız ibrət dərsləri barədə fikirlərinizi almaq istərdim...***

- Erməni-daşnak və bolşevik qüvvələrinin Bakıda azərbaycanlılara qarşı törətdiyi soyqırımı bəşəriyyətə və sivilizasiyaya qarşı ağır cinayətdir. Əgər biz 1918-ci ilin martına qədərki buna bənzər hadisələrdən, məsələn, 1905-1906-cı il qırğınlarından bir millət olaraq ibrət dərsləri alsaydıq, müstəqil və güclü dövlətimiz olsaydı, 31 mart da olmaya bilərdi. Əgər 31 martı bilsəydik, ondan düzgün nəticə çıxarsaydıq və güclü dövlətimiz olsaydı, Xocalıda törədilmiş soyqırımı da olmazdı. Belə hadisələrin gələcəkdə bir daha təkrarlanmaması üçün millətimiz öz tarixini bilməli, müqəddəs dövlətimiz və uca millətimiz daim güclü olmalıdır.

***Ləman Sərraf***

## "Həmin missiya Ermənistan və Avropa Birliyinin gözündə "şirma" rolunu oynayır"

"Avropa Birliyinin Ermənistandakı mülki deyilən, əslində isə çoxşaxəli fəaliyyət üçün nəzərdə tutulmuş missiyası ilə bağlı tədrici və sistemli siyasət aparıldı. Təbii ki, burada təsadüfi heç nə yoxdur. İstər mülki adı altında hərbi kəşfiyyat missiyasının Ermənistana gətirilməsi, istərsə də onun statusu ilə bağlı razılaşmanın ratifikasiya olunması düşünülmüş bir prosesin tərkib hissələridir". Bu sözləri SİA-ya açıqlamasında siyasi şərhçi Aydın Quliyev deyib.



Onun sözlərinə görə, əvvəlcə 2022-ci ilin dekabrında Avropa Birliyi ilə belə bir razılaşma əldə olundu: "Amma Azərbaycan həmin missiyanın bizim ölkəmizin ərazisində fəaliyyət göstərməsinə etiraz etdi. Bununla yanaşı Ermənistan ərazisində fəaliyyət göstərməsinin ancaq müəyyən şəffaf prinsiplər çərçivəsində mümkün olacağı yönündə mövqeyini bildirdi. 2023-cü ilin əvvəllərindən başlayaraq əvvəlcə 40 nəfərə yaxın missiya üzvü Ermənistana gəldi. Ötən ilin sonunda isə bu missiya üzvlərinin sayının artırılması ilə bağlı razılıq əldə olundu. Bu ilin əvvəllərində artıq missiya üzvlərinin sayı 200-dən yuxarı oldu. Eyni zamanda, 2023-cü ilin sonlarında mülki missiyanın statusu ilə bağlı Avropa Birliyi ilə Ermənistan arasında əldə olunan razılaşma ötən günlərdə Ermənistan parlamenti tərəfindən ratifikasiya olundu".

A.Quliyev sözlərinə davam edərək bildirib ki, burada məqsəd Avropa Birliyi bayrağı adı altında Qərbin hərbiləşmiş qüvvələrini Ermənistana yerləşdirmək, Rusiyanın silahlı qüvvələrini bu ərazidən çıxarmaq üçün imkan yaratmaq, bölgədə Rusiyanın mövqeyini zəiflədərək Qərb dövlətlərinin, xüsusilə də Fransanın mövqeyini gücləndirməkdir: "Ratifikasiyasından sözügedən sazişin kifayət qədər müəmmaları var. Bu sənəddə missiyanın vəzifələrindən biri olaraq Ermənistan və Avropa Birliyinin siyasi münasibətlərinin daha da dərinləşdirilməsi yönündə addımlarIn atılmasının nəzərdə tutulması çox düşündürücüdür. Bu, hazırkı şəraitdə Avropa Birliyinin sülh fondu və müxtəlif ölkələrin xətti ilə Ermınistanın hərbi cəhətdən gücləndirilməsindən başqa bir şey deyil. Avropanın mülki missiyasının Ermənistan ərazisində fəaliyyəti əslində, həm Azərbaycan, həm Rusiya, həm də İranın timsalında başqa bir bölgə dövlətinə qarşı düşünülmüş plandır. Çünki 2022-ci ilin dekabrında əldə olunmuş və Azərbaycanın da razılıq verdiyi bu missiyanın fəaliyyəti ilə bağlı nəzərdə tutulmuş statusdan demək olar ki kənara çıxılır. Bu da həmin missiyanın əslində Ermənistan və Avropa Birliyinin nəzərində sadəcə bir "şirma" rolunu oynadığının daha bir sübutudur".

***Ləman Sərraf***

## "Süni intellekt Azərbaycan iqtisadiyyatı üçün yeni imkanlar deməkdir"

"Bütövlükdə süni intellektdən istifadə edilməsi bu gün prioritet məsələdir. Xüsusilə bu istiqamətdə Azərbaycanda dördüncü sənaye inqilabı üzrə xüsusi mərkəzin formalaşdırıldığı nəzərə alınmalıdır. Bu mərkəz çərçivəsində Davos iqtisadi forumu ilə də əməkdaşlıq edilir". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Vüqar Bayramov deyib.



Deputat bildirib ki, süni intellektin formalaşması bütövlükdə Azərbaycan iqtisadiyyatında yaradılan yeni dəyərin həcminin artması və daha çox yeni dəyərin formalaşmasına gətirib, çıxara bilər: "Bu innovasiyanın dəstəklənməsi, innovativ istehsalın güclənməsi baxımından da çox vacibdir. Çünki bu birbaşa olaraq Azərbaycan iqtisadiyyatı üçün yeni imkanlar deməkdir. Bu baxımdan süni intellektdən daha çox istifadə olunması bütövlükdə Azərbaycan iqtisadiyyatında keyfiyyətcə yeniliklərin daha da dərinləşməsinə imkan yaradacaq".

***Səbinə Hüseynli***

# Xankəndidə qalanan Novruz tonqalımız

## Prezident İlham Əliyev: "Biz sübut etdik ki, istənilən münaqişənin hərbi həlli var"





Azərbaycan artıq yeni bir dövr başlanğıcındadır. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində torpaqlarımızın erməni işğalından azad edilməsi tariximizə əbədi həkk olundu və əzəli yurd yerlərimizə sahib olduq. Cənab Prezident müharibədən sonra azad olunmuş ərazilərə səfər edərək, həmin torpaqlardan qarşıda duran vəzifələrlə bağlı mesajlarını verir. Hər bir ərazidən qalib ordunun və dövlətin qalib SƏRKƏRDƏSİ kimi səsəni ucaldır, mesajlarını verir, dünya bunu görür və eşidir. Artıq Qalib bir Sərkərdə kimi Cənab Prezident dördüncü ildir ki, azad olunmuş torpaqlarımızda bayram tonqallarını qalayır. 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, keçən il Talış kəndində, bu il isə Xankəndi şəhərində. Bu qalanan bayram tonqalları yurdumuzun yaşamasıdır, varlığıdır, sahib olduğumuz torpaqlara qayıdışımızdır.Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xankəndi şəhərində Novruz tonqalını alovlandırması buranın əzəli sakinlərinin yurd yeri olduğunu bir daha təsdiqləyir. Dövlətimizin başçısı Azərbaycan xalqını Novruz bayramı münasibətilə Xankəndidən təbrikində bildirdiyi kimi, bu, böyük xoşbəxtlikdir: "Altı ay bundan əvvəl cəmi bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində biz öz suverenliyimizi tam bərpa etdik və bu gün Azərbaycan ərazisində ölkəmizin ərazi bütövlüyü tamamilə təmin edilmişdir".

### "BİZ İKİNCİ QARABAĞ MÜHARİBƏSİ ZAMANI VƏ ANTİTERROR ƏMƏLİYYATI NƏTİCƏSİNDƏ BÖYÜK QƏHRƏMANLIQ GÖSTƏRMİŞİK"

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri həm Vətən müharibəsində, həm də lokal antiterror tədbirləri zamanı peşəkarlığını, qarşısına qoyulmuş vəzifələri ən yüksək səviyyədə icra etmək məharətinə malik olduğunu bir daha nümayiş etdirdi. Ötən ilin sentyabrın 19-da başlayan və təqribən 24 saat davam edən lokal antiterror tədbirləri Azərbaycan tarixinin şanlı səhifələrindəndir. Vətən müharibəsindəki tarixi Qələbəmizdən və Ermənistanın kapitulyasiyasından sonra Azərbaycan dövləti humanizm göstərərək, ölkəmizin erməni əhalisi ilə reinteqrasiya prosesinə start verdi. Vətən müharibəsində qəhrəmanlıq göstərən Azərbaycan Ordusu bu dəfə də yüksək peşəkarlıq nümayiş etdirərək, Ali Baş Komandanın onların qarşısında qoyduğu tapşırığı cəmi 24 saatda yerinə yetirdi. Nəticə olaraq separatçılar ağ bayraq qaldırdı və dövlətimiz qarşısına qoyduğu bütün hədəflərə çatdı. İndi bütövlükdə bölgədə sülh və inkişaf üçün gözəl şərait yaranıb. 30 ilə yaxın işğal altında olan və 44 günlük Vətən müharbəsi zamanı azad olunan ərazilərimiz hər kəsə qürur yaşatdı.

### "BU GÜN BİZ BU TORPAQLARDA QURURUQ, YARADIRIQ, BU TORPAQLARA HƏYAT QAYIDIR"

"Biz İkinci Qarabağ müharibəsi zamanı və antiterror əməliyyatı nəticəsində böyük qəhrəmanlıq göstərmişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimizin, igid əsgər və zabitlərimizin fədakarlığı, peşəkarlığı, qəhrəmanlığı nəticəsində bu gün biz bu torpaqlarda qururuq, yaradırıq, bu torpaqlara həyat qayıdır".

2020-ci ilin noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti tarixdə yeni səhifə, salnamə oldu. İşğal altında olan şəhər, kənd və qəsəbələrimizin Azərbaycan ordusu tərəfindən azad olunması, eləcə də Şuşanın azad edilməsi və noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi artıq düşmənin çıxılmaz vəziyyətdə olduğunu ona anlatdı və məğlubiyyəti ilə üz-üzə qaldı. Şuşanın alınması Ermənistanı tam tərk-silah etdi və düşmənin ağ bayraq qaldırmaqdan başqa çıxış yolu yox idi. 2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələrinin qısa müddət ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə bəyanatı imzalandı və bu mahiyyət etibarilə Ermənistanın kapitulyasiyası idi. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. "Azərbaycan İkinci Qarabağ müharibəsi nəticəsində öz ərazilərinin böyük hissəsini döyüş meydanında azad edib. Halbuki işğal dövründə dəfələrlə bir çox paytaxtlardan bizə siqnallar göndərilirdi ki, bu münaqişənin hərbi həlli yoxdur. Biz sübut etdik ki, istənilən münaqişənin hərbi həlli var. Əgər işğalçı dövlət qanunsuz olaraq digər ölkənin ərazisini işğal altında saxlayır və o torpaqlardan öz xoşu ilə çıxmaq istəmirsə, yeganə yol hərbi yoldur. Biz beynəlxalq hüquq çərçivəsində öz ərazi bütövlüyümüzü, suverenliyimizi bərpa etmişik" - deyə Prezident bildirib. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə məhəl qoymayan Ermənistan döyüş meydanında Azərbaycanın gücünü görmüş oldu. "Altı ay bundan əvvəl uğurla keçirilmiş antiterror əməliyyatı beynəlxalq hüququn təntənəsidir" - deyən Prezident bunun Azərbaycan xalqının əyilməz ruhunun təntənəsi olduğunun diqqətə çatdırıb: "Biz bir daha göstərdik ki, öz yolumuzdan dönməyəcəyik, Ermənistanın arxasında istənilən qüvvələr dursalar belə, biz öz istədiyimizə nail olacağıq və nail olmuşuq. Biz iyirmi il torpaqlarımızın azad olunmasına hazırlaşmışdıq. Bir çox istiqamətlər üzrə planlı şəkildə işlər gedirdi. Siyasi müstəvidə dünyada Azərbaycanın mövqeləri möhkəmləndi, dostlarımızın sayı böyük dərəcədə artmışdır. Beynəlxalq təşkilatlar bizim təşəbbüsümüzlə münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən və beynəlxalq hüquqa əsaslanan qərar və qətnamələr qəbul etmişlər və bu münaqişənin həlli üçün hüquqi və siyasi zəmin yaratmışdır".

### "BU GÜN AZƏRBAYCAN DÜNYA MİQYASINDA NADİR ÖLKƏLƏRDƏNDİR Kİ, ONUN SİYASƏTİ TAMAMİLƏ MÜSTƏQİLDİR"

Azərbaycanın iqtisadi inkişafı, siyasi cəhətdən gücü torpaqlarımızın işğaldan azad olunmasına gətirib çıxardı. "Güclü iqtisadiyyat bizə imkan verdi ki, siyasi müstəvidə öz siyasətimizi müstəqil şəkildə aparaq. Bu gün Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, onun siyasəti tamamilə müstəqildir, ancaq və ancaq Azərbaycan xalqının maraqlarına, iradəsinə əsaslanır" - deyə Prezident bildirib.Cənab Prezident təbrikində Ordumuzun, bütün Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti böyük dərəcədə artdığını və maddi-texniki təchizatın ən yüksək səviyyədə həll olunduğunu bildirərək İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatının bunu bütün dünyaya nümayiş etdirdiyin bildirib. Onu da qeyd edib ki, ən önəmlisi elə bir gənc nəsil yetişdirildi ki, bu gənc nəsil bizim xalqımız üçün əbədi qürur mənbəyi olacaq və bütün dünyaya Azərbaycan xalqının böyüklüyünü nümayiş etdirmişdir: "Bizim gənclərimiz vətənpərvərlik ruhunda, milli ruhda yetişdirildi, üç il bundan əvvəl torpaqlarımızı azad etmək üçün ölümə getməyə hazır idilər və ölümə gedirdilər".Vətənpərvər ruhda tərbiyə almış Azərbaycan gənci hər qarış torpağın müdafiəsində dayandı. Gənclərin Vətən müharibəsi başlayanda könüllü olaraq orduya yazılması, vətən torpaqlarının müdafiəsinə qalxması vahid niyyət ətrafında birləşən gənclərimizin əzmkarlığını, vətənə sevgisini bir daha göstərimiş oldu. "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib", - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirib. Azərbaycan tarixi ədaləti bərpa etdi. Azərbaycan Respublikasının dövlətçilik rəmzləri sırasında yer alan Dövlət Bayrağını hər şeydən uca tutan gənclərimiz qürur mənbəyimiz, and yerimiz olan Bayrağımız qarşısında baş əyərək müqəddəs varlıq kimi ona and içdilər. Bu Azərbaycan Ordusunun, gəncinin sahib olduğu gücə, bayrağımıza olan dərin məhəbbətindən və sədaqətindən qaynaqlandı. Torpaq yolunda şəhid olan Azərbaycanın igid oğullarının qəlbimizdə abidələri ucalıb. Vətən savaşında şücaət göstərərk düşmənə dönməzliyini sübut edərək vətən qarşısında öz borclarını vermiş oldular. " Bir daha Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz bütün şəhidlərimizin, günahsız Xocalı qurbanlarının qanını döyüş meydanında aldıq və bununla fəxr edirik. İstənilən ölkə, istənilən xalq bununla fəxr edə bilər, o cümlədən biz. Biz ərazi bütövlüyümüzü, suverenliyimizi, beynəlxalq hüququmuzu, milli ləyaqətimizi bərpa etmişik və bu gün azad xalq kimi yaşayırıq, qururuq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq" - deyə Prezident bildirib.

### "NOVRUZ TONQALI DA SON TƏMİZLƏMƏ İŞLƏRİNİ GÖRÜR"

Bu gün Azərbaycan tarixi hadisələrlə zəngin bir dövrü yaşayırıq. Azərbaycan öz tarixində heç vaxt olmadığı qədər müstəqil və güclü dövlətə malikdir. O, regionda və dünyada sayılır və dövlətimizlə hesablaşırlar. Bunun arxasında əzmkarlıq, mübarizlik və düşünülmüş uzaqgörən siyasət dayanır.

İşğaldan azad olunan ərazilərimizdə yeni, qaynar dövr başlayıb. Abadlıq-quruculuq işləri aparılır. "Fevralın 26-da mən Xocalıda xocalılılarla birlikdə Xocalı memorial kompleksinin təməlini qoydum. Burada yerləşmiş, qanunsuz inşa edilmiş şeytan yuvası - dırnaqarası parlament binası və onun yanındakı terror təşkilatının binası fevralın 26-da sökülməyə başladı və yerlə-yeksan edildi. Separatçıların izi-tozu da qalmadı. Novruz tonqalı da son təmizləmə işlərini görür" - deyə Azərbaycan Prezidenti bildirib.



*Nəzakət ƏLƏDDİNQIZI*

# Qərbin Cənubi Qafqaz siyasəti: yeni müharibəyə təhrik?

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 7 fevral 2024-cü il Zəfər seçkisində tarixi qələbəsindən sonra Andiçmə mərasimindəki möhtəşəm nitqində hər kəsə açıq mesaj verdi: "Biz ağır daşları tərpətmişik və bu ağır daşlar bundan narahatdırlar". Gün keçdikcə tarixi qələbələrimizin memarı, Müzəffər Ali Baş Komandanın bu sözlərinin real həyatda əksini tapdığını müşahidə etməkdəyik. Otuz il bütün dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən Azərbaycan torpaqlarının Ermənistanın işğal altında qalmasına seyirçiliklə yanaşan, hətta bizi bu "status-kvo" ilə barışmağa təhrik etməyə çalışan bəzi qərb dövlətlərinin bu gün sərgilədikləri mövqe, sözün birbaşa mənasında ikiüzlülükdən başqa bir şey deyil.***














Ermənistandan, keçmiş Daqğlıq Qarabağdan və ətraf rayonlardan bir milyondan artıq azərbaycanlının silah gücünə, min bir zülmlərlə, işgəncələrlə qovulub çıxarılmasına, minlərlə insanın - qocaların, qadınların, uşaqların, əliyalın mülki əhalinin bu köç zamanı ermənilər tərəfindən qətlə yetirilməsinə, Xocalı kimi dünyada mislibərabəri olmayan qətliam faktına susan qərb bu gün torpaqlarımızı işğaldan azad etməyimiz, bununla BMT-nin dörd məlum Qətnaməsini öz gücümüzlə həyata keçirməyimiz nədən bu qədər hiddət doğurur?

Bu gün avropa hansı səviyyəyə enib ki, bir milyarddan çox yer kürəsi sakininin iman gətirdiyi müqəddəs quranı-kərimi təhqir etmək istəyənlər sıraya düzülüb! O qədər cılız düşünürlər ki, bu hərəkələri ilə onlar bir milyarddan çox insanın heysiyyətini təhqir etməyi özlərinə fəxr bilirlər. Dünyaya özünü mədəniyyət beşiyi kimi təqdim edən Avropanın ortasında, Hüqonun, Balzakın, Dalinin vətənində, Fransada Azərbaycan şairəsi Natəvanın heykəli təhqir olunur, yetkililər də buna susur. İş o yerə çatıb ki, hətta idmanda, futbol meydançalarında da xalqımıza "göz dağı" verməkdən belə çəkinmirlər. Ardıcıl iki mərhələdə heç bir ciddi səbəb olmadan aparıcı oyunçunu meydandan qovmaq təsadüfi deyildi... Budurmu avropa adlanan, dünyanın mədəniyyət beşiyi hesab edilən qoca qitə?

Axı niyə? Böyük mütəfəkkir şairimiz M.Ə.Sabirin təbirincə desək, ey əcəb, biz ki, sədaqət və ədalət yolunu azmamışıq, hayların bizə etdiklərininin beşdə birin etməmişik! BMT-də, dünyanın digər qurumlarında rəsmən tanınmış ərazimizin işğalda olan parçasından işğalçı, terrorçu qüvvələri qovub çıxarmışıq. Bu qədər! Bir nəfər də olsun mülki ermənininin burnu qanamadan, bir mülki obyektə də, bir tarixi abidəyə də toxunmadan, zərər vurmadan anoloqu olmayan beynəlxalq hərbi qaydalara əməl edilməklə əldə edilən bu qələbəni günümüzdə davam edən Rusiya-Ukrayna, İsrail-Həmas savaşları ilə müqayisə etmirlərmi bu qərb riyakarları görəsən?

Bu günlərdə Ermənistan parlamenti Azərbaycanla sərhəddə yerləşdirilmiş Aİ missiyasının statusuna dair razılaşmanı ratifikasiya edib. Missiya 2023-cü ilin yanvarında yaradılıb, dekabrda isə missiya iştirakçılarının sayı 138 nəfərdən 209 nəfərə qədər artırılıb. Ermənistan parlamentinin bu razılaşmanı məhz indi radifikasiya etməsi isə bir sıra mətləblərdən xəbər verir. Heç şübhəsiz, bu, Aİ, ABŞ, Fransa və Ermənistan siyasi və hərbi rəhbərliklərinin təhlükəsizliklə bağlı keçirdikləri görüşlərlə birbaşa bağlıdır. O da şübhəsizdir ki, bu format Azərbaycana qarşı yönəlib və Azərbaycanı, Azərbaycanın öncüllüyü ilə Cənubi Qafqazda yaranmaqda olan kövrək sabitliyi hədəf götürür. Təhlükəsizlik təminatı adı altında Ermənistanın dəstəklənməsi, silahlandırılması və ondan dağıdıcı vasitə kimi istifadə olunması Cənubi Qafqazda sülhü, sabitliyi və təhlükəsizliyi mümkünsüz etməyə xidmət göstərmiş olur.

Qərb dünyanın bir sıra regionlarında, o cümlədən Cənubi Qafqazda yeni nüfuz bölgüsü həyata keçirir və formalaşmış geosiyasi konfiqurasiyanı dağıtmaq planları qurur. Bu, bütün regionda ciddi təlatümlər, yeni müharibələr və qarşıdurmalar vəd edir. Bundan həmin qüvvələr nə qazanırlar? Açıq şəkildə, gizlətmədən oynanılan bu geosiyasi oyun Rusiyanı Qafqazdan çıxarmaq, İrana təzyiq üçün regiondan istifadə etmək və Azərbaycana "demokratiya", "söz və insan azadlığı" kimi çeynənmiş ibarəli sözlərlə təsir etmək, nəticədə bu ölkədən daha çox iqtisadi resurslar qoparmaq qərbin başlıca məqsədləridir. Sadəcə qərb Azərbaycan siyasi rəhbərliyinin diplomatik gücünü, beynəlxalq aləmdə və ölkədə olan danılmaz nüfuzunu, siyasi praqmatik keyfiyyətlərini xəfifə almaqla yanlışlıqlara yol verdiklərini anlamadan oyuna davam etdirirlər. Bu isə, əvvəlki 20 ildə olduğu kimi, yenə də sonda məhz onların gözləntilərinin puç olacağını deməyə tam əsas verir.

Təbii ki, Azərbaycan müstəqil siyasət yeridən bir ölkədir və nə Rusiyanın, nə də qərbin əsassız istək və arzularına boyun əyəcək durumda deyil. 30 illik işğal dövründə bunu etməyibsə, gərəkdir ki, qərb də Rusiya kimi Azərbaycanın belə oyunlarda Ermənistan kimi molionet rolunda olmayacağını anlamalıdır. Əksinə, belə olacağını gözləmələri də qərbin ağılsızlığının təcəssümüdür. Üstəlik, Azərbaycan iki qüdrətli region dövləti - Türkiyə və Rusiya ilə müttəfiqlik səviyyəsində anlaşma imzalayıbsa, nədən indiki durumda Rusiya kimi nəhəng güclə qarşı-qarşıya gəlməlidir? Axı ATƏT-in Minsk Qrupunun 30 illik fəaliyyəti dövründə həmsədrlər arasında, gec də olsa məhz Rusiya Azərbaycanın müstəqil siyasi kursuna ehtiram göstərən yeganə ölkə oldu! ABŞ-dən, Fransadan fərqli olaraq Rusiya Azərbaycanın 44 günlük savaşı dönəmində də, sonrakı hadisələrdə də ədalətli mövqe nümayiş etdirdi. Söz yox, Rusiyanın belə mövqe nümayiş etdirməsində həm Türkiyə və Türk Birliyi Təşkilatı faktorları, həm Ermənistanın indiki hakimiyyətinin qərbyönlü siyasəti, onlara yoxdan dövlət yaratmış Rusiyaya arxa çevirməsi, həm də Azərbaycanın indiki blokada şəraitində olan Rusiyaya nə qədər vacib ölkə olması da mühüm əhimiyyətli rol oynayır.

Ancaq, xalqın təbirincə desək, "ya zəlzələdən, ya vəlvələdən", Rusiya bu gün haqqın, ədalətin, haqlı və ədalətli tərəf olan Azərbaycanın yanındadırsa, nədən Azərbaycan belə güclü dostuna qarşı çıxmalı, qərbin geosiyasi maraqları naminə qonşusu ilə qarşı-qarşıya gəlməlidir? Solovyovlar, simonyanlar, zatulinlər ermənı pulu hesabına Azərbaycana qarşı piyar kompaniyası aparsalar da, Rusiyanın rəsmi dairələrinin indiki mövqeyi Azərbaycanın maraqları ilə uzlaşırsa, niyə biz maraqlarımıza zidd getməliyik? Rusiyada baş verən məlum terror aktını da Azərbaycana bağlamaq istəyənlər (başda Solovyov olmaqla - T.N.) dəridən-qabıqdan çıxsalar da, Rusiya rəsmilərinin mövqeyi bunu qətiyyətlə rədd edir ki, bu da Rusiyanın indiki hakimiyyətinin Azərbaycana münasibətinin həqiqətən qarşılıqlı inam üzərində olduğunu deməyə əsas verir. O başqa mövzunun söhbətidir ki, haylar müstəqilliyin ilk illərində Azərbaycanın səriştəsiz rəhbərlərinin yanlış siyasətindən yararlanaraq torpaqlarımızı işğal edən zaman məhz Rusiya ona dəstək verdi və nəticədə kövrək olan müstəqilliyimiz, suverenliyimiz təhlükə ilə üz-üzə qaldı...

Bir məqama da xüsusi diqqət yetirməyi mühüm hesab edirik. Heç kimə sirr deyil ki, qərb dünyası hansı ölkəyə, hansısa maraqları baxımından oyun qurursa, bu oyunların başında həmin ölkənin sadəlövh, bəzən xəyanətkar, pul, var-dövlət, şan-şöhrət düşkünü olan insanlarından maksimum yararalanmağa çalışırlar. Mmüxtəlif ölkələrin daxilində gedən prosesləri müşahidə etməklə kifayətlənmək olar ki, qərbin oyunları sırasında bu xətt hər zaman öndə olub. Nə yazıqlar ki, Azərbaycanda da belə ünsürlər tapılır və hər vasitə ilə ölkəmizdə yaranmış indiki birliyi, "Dəmir Yumruq"u sarsıtmaq, qarşıdurmalar yaratmaq, ölkənin indiki siyasi və hərbi rəhbərliyini gözdən salmaq, onlara qarşı inamsızlıq toxumu səpmək üçün milyonlarla vəsait buraxıb belələrindən istifadə edə bilirlər. Hesab edirik ki, bu məsələdə də xalq olaraq ayıq-sayıqlığımızı əldən verməməli, belə ünsürlərin meydan sulaması üçün boşluqlar yaratmamalıyıq. Əkstəqdirdə istəklərinə nail olarlarsa (Qulaqlardan uzaq-T.N.) bizləri hansı fəlakətlər gözlədiyini deməyə ehtiyac görmürük.

Qəribədir, ilkin dövrdə Aİ-nin Ermənistandakı missiyası qısamüddətli olmalı idi. Ancaq sonradan uzunmüddətli status təsdiq olundu və onun hərbiləşdirilməsinə başlanıldı. Qərb bu yolla regiona hərbi müdaxiləyə start vermiş oldu. Hazırda ABŞ-nin də bu prosesə qoşulması və missiyanın tərkibində öz hərbçilərini Ermənistana göndərmək planları faktiki olaraq qərbin Ermənistanda öz hərbi bazasını yaratması deməkdir. Bütün bu proseslər Azərbaycanın sərhədlərində baş verir və təbii ki, Azərbaycana qarşı yönəlib. Görünən odur ki, qərb inteqrasiya olunmuş, əməkdaşlıq mühitinin formalaşdığı Cənubi Qafqaz əvəzinə militarizasiya olunmuş və silah-sursatla doldurulmuş, barıt çəlləyini xatırladan region istəyir. Bu prosesdə Ermənistan tarixi ənənəsinə sadiq qalaraq vasitəçi qismində çıxış edir. ABŞ başda olmaqla qərbin regiona hərbi müdaxiləsi Azərbaycanla yanaşı İran və Rusiyaya qarşı da mümkün təhdid və təhlükə vəd edir. Rusiya və İranın isə bu faktları hələ də susqunluqla qarşılaması, hesab edirik ki, başqa mətləblərdən xəbər verir. Ya tufan öncəsi sakitlikdir, ya da pərdələr arxasında türk dünyasının birliytini pozmaqla bağlı hansısa gizli razılaşmalar var...

***Təhmasib Novruzov***
***Azadlıq Hərəkatçıları İctimai Birliyinin sədri,yazıçı-publisist***

# İqtisadi sərvət: susuz dünya kimə lazımdır?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə Ekologiya və ətraf mühitin mühafizəsi istiqaməti çərçivəsində hazırlanıb*



***Dünyadakı şirin su qaynaqlarının yalnız 10 faizi əlçatandır. Qalan şirin su ehtiyatları yeraltı sularda və buzlaqlarda mühavizə olunur. Dünyada 663 milyon insanın adekvat su ehtiyatlarına çıxışı yoxdur, hər gün 5 yaşınadək 800 uşaq qeyri-adekvat su, kanalizasiya və pis gigiyena şəraitinin yaratdığı ishaldan ölür. Dünyada qadınlar və qızlar evlərinə su daşımaq üçün ümumilikdə 200 milyon saat sərf edirlər.***



Su yaşamaq üçün ən əsas ehtiyaclarımızdan biridir. Dünyanın bir çox yerlərində insanlar içməyə və yemək bişirməyə su tapa bilmirlər. Afrika ölkələrinin uzun illərdir mübarizə apardığı su qıtlığı indi Yaxın Şərq ölkələrində də müşahidə olunur. Digər tərəfdən, yaxın gələcəkdə su qıtlığının gözlənildiyi ölkələr də var. Ona görə də bütün dünyada su problemləri və həlli yolları araşdırılır.

Suyun bütün canlıların ehtiyaclarını ödəməyə yetməyəcək dərəcədə azalmasına su qıtlığı deyilir. Su problemi ilk növbədə ekoloji problemlər yaratsa da, sosial və iqtisadi aspektlərdə də danılmaz əhəmiyyət kəsb edir. Su qıtlığının bir çox səbəbi var. Həyatın təməli olan su ehtiyatları, əhali artımı, sənayeləşmə, iqlim dəyişikliyi və çirklənmə kimi səbəblərə görə təhlükə altındadır. Həmçinin, su ehtiyatlarından qeyri-düzgün istifadə, israfçılıq da su qıtlığı riskini artırır. Azərbaycanın da yaxın gələcəkdə su böhranı ilə üzləşmə təhlükəsi var.

Birləşmiş Millətlər Təşkilatının (BMT) məlumatlarına görə, bu gün dünyada hər üç nəfərdən birinin təhlükəsiz içməli suya çıxışı yoxdur. 2050-ci ilə qədər dünyada 5,7 milyard insanın ildə ən azı 1 ay suyun məhdudlaşdırıldığı yerlərdə yaşaya biləcəyi təxmin edilir. Həmçinin, 2040-cı ilə qədər suya tələbatın 50 faiz arta biləcəyi, bunun da bu mühüm həyat mənbəyinə təzyiqi artıracağı düşünülür.

İqlim dəyişikliyi ilə əlaqədar artan temperatur həm də quraqlıq gətirir. Qlobal su sistemi həmçinin quraqlıq təhlükəsi ilə üz-üzədir. İstixana qazları emissiyaları bütün dünyada temperaturun artmasına səbəb olur. Bu vəziyyət onsuz da qurumuş yerlərin daha da qurumasına səbəb olsa da, hazırda quraqlıq yaşamayan yerlərin də tədricən qurumasına səbəb olur. Hazırda 80 ölkə su çatışmazlığından əziyyət çəkir.





Dünyanın istiləşməsinin bir çox fəsadları var. Bu nəticələr arasında hava axınlarının dəyişməsi su qıtlığına zəmin yaradır. Ekvatorda yağıntıya imkan verən buludlar yavaş-yavaş qütblərə doğru sürüşür. Buludların yerdəyişməsi Kosta Rika və Qvatemala kimi Mərkəzi Amerika ölkələrini və Somali, Cibuti və Komor kimi Mərkəzi Afrika ölkələrini susuz qoyur.

Dünya əhalisinin sürətli artımı illər əvvəl salınmış şəhər və ya qəsəbələrin infrastrukturunun yetərli olmamasına səbəb olur. Su təmizləyici qurğulara adekvat sərmayə qoyulmaması, kanalizasiya xətlərinin layihələndirilməsində yol verilən səhvlər, dar borular və bir çox digər problemlər hər il dünyada milyonlarla ton içməli su israfına səbəb olur. Təkcə İngiltərədə borulardan su itkisi hər il 3 milyard litrə çatır. Yəni infrastrukturun olmaması səbəbindən böyük miqdarda su israfı var. Bunun qarşısını almaq üçün infrastruktur işlərinə diqqət yetirilməli və kifayət qədər sağlam sistem yaradılmalıdır.

Dünyada təmiz su ehtiyatlarının təxminən 70%-i kənd təsərrüfatında istifadə olunur. Beləcə, kənd təsərrüfatı, su ehtiyatlarının israfı sahəsinə liderlik edir. edilir. Təxmini hesablamalara görə,1 kq buğdanın yetişməsi üçün 1250 litr su sərf edilir. Kənd təsərrüfatı, heyvandarlıq, toxuculuq və bir çox başqa sahələrdə su ehtiyatlarından elə istifadə edilir ki, sanki içməli su qaynaqları tükənməyəcək. Əhali sayının artması ilə artan istehlak miqdarı su qıtlığının əsas səbəblərindən biri kimi göstərilir.

Bütün dünyada şirin su ehtiyatları nəinki azalır, həm də çirklənir. Bu tendensiyanın qarşısı alınmasa çox da uzaq olmayan gələcəkdə ciddi formada su qıtlığı yaşanacaq. Su qıtlığından əziyyət çəkən və yaxın gələcəkdə su qıtlığı yaşayacaq ölkələr üçün təcili tədbirlərin görülməsi həyati əhəmiyyət kəsb edir.

Həm yerli, həm də qlobal səviyyədə su ehtiyatlarından səmərəli istifadə çox vacibdir. Dövlətlərin görə biləcəyi tədbirlərlə yanaşı, fərdi tədbirlər görülməlidir. İnsanlar içməli suyun hər damlasının qiymətli olduöunu anlamalı, məişətdə istifadə edərkən israfa yol verməməlidir. Avtomobillər yuyularkən, duş alarkən, paltar və qab yuyarkən, yaxın gələcəkdə nəinki bunları etmək, hətta içməyə belə su tapa bilməyəcəyimizi nəzərə almalıyıq.

Sudan istifadəni azaltmaqla yanaşı, şirin su ehtiyatlarını çirkləndirən birdəfəlik istifadə edilən plastik tullantıları da azaltmaq lazımdır. Məsələn, birdəfəlik plastik butulkalarda satılan suyu seçmək su qıtlığına "töhfə" vermək deməkdir. Plastiklərin həm istehsalı, həm də istehlakdan sonra təbiətə atılması təbiətə zərər verir. Təbiəti, dolayısı ilə özünüzü qorumaq üçün ekoloji cəhətdən təmiz su şüşələri seçə bilərsiniz.

Alternativ su mənbələrinə müraciət etməklə davamlı içməli su ehtiyatları yaradıla bilər. İnsanlar, kənd təsərrüfatında içməyə yararlı olmayan sulardan istifadəni, sənayedə içməli su istifadəsini dayandırmaqla təbiətə, dolayısı ilə insanlara faydalı olmuş olar. Həmçinin, çirkab suları düzgün və texnoloji təmizləyici sistemlərlə istifadəyə yararlı hala salına bilər. Suyun təmizlənməsi və istifadəsi bir çox müxtəlif sektorlar üçün faydalı ola bilər.

Dünyanın 70 faizi su ilə örtülüdür, lakin içməli su ehtiyatları bütün suyun yalnız 1 faizini təşkil edir. Bununla belə, mövcud içməli su mənbəyinin əlçatanlığı ciddi problemdir. Su ehtiyatlarının kəmiyyət və keyfiyyətcə qeyri-kafi və əlçatmaz olması təbiətə, cəmiyyətə və fəaliyyət göstərən iqtisadiyyatlara birbaşa təsir göstərir. Qlobal suya tələbat artır. Sosial, iqtisadi və ekoloji sahələrdə su problemi bəşəriyyət üçün əsas təhlükələrdən biri hesab olunur. Həyati əhəmiyyətinə görə "Su iqtisadi sərvət olmamalıdır" fikri səsləndirilsə də, əslində içməli su indi ən çox ticari söz-söhbət yaradan təbii sərvətdir. Dünya ölkələri içməli suya çıxış, əlçatanlıq məsələsində bir-birindən gizlin tədbirlər görməkdir. Artıq qızıl yataqları, neft quyuları qədər içməli su ehtiyatları da milli sərvət hesab edilir.

Biz 2 milyard insanın çirkli su içdiyi, 700 milyon insanın su qıtlığından əziyyət çəkdiyi və 2050-ci ilə qədər dünya əhalisinin demək olar ki, yarısının su qıtlığı yaşayacağı bir dünyanın sakinləriyik. 2040-cı ilə qədər təxminən 600 milyon uşaq (hər 4 uşaqdan 1-i) su ehtiyatlarının son dərəcə məhdud olduğu bölgələrdə yaşayacaq. Dünyanın gələcəyi və öz gələcəyimiz üçün daha çox insana su qıtlığı ilə bağlı məlumat ötürməli, su israfçılığının qarşısını almaq istiqamətində işlər görməliyik. Biz təcili olaraq su istehlakında olan israfçılığımızı, xüsusən də kənd təsərrüfatında içməli sudan istifadəni dayandırmalıyıq.



**_Lalə Mehralı_**

SON SƏHİFƏ
SƏS
28 mart
2024-cü il

# Bayram tətilindən sonra iş prosesinə necə adaptasiya olunmalı?



## PSİXOLOQ İZAH ETDİ

Yəqin ki, bayram tətilləri hər kəsin səbirsizliklə gözlədiyi günlərdir. Bayram günləri istirahət etmək gözəl olsa da tətildən sonra işə adaptasiya olmaq bir o qədər çox çətindir. Belə ki, bir çox insan tətil günlərində gündəlik rejimini pozduğu üçün işə fokuslana bilmir və çox əziyyət çəkir. Tətilin bitməsinə 1-2 gün qalmış artıq hər kəs özünü iş mühitinə alışdırmağa çalışır. Bir çoxları üçün bu asan olsa da, əksər insanlara görə bayramdan sonra işə adaptasiya olmaq olduqca çətin bir prosesidir. Bəs tətildən sonra işə adaptasiya olmaq üçün nə etməliyik? SİA mövzu il bağlı psixoloq Vüsalə Əmiraslanovanın fikrini öyrənib.

O bildirib ki, bayram günləri uzun müddət olduğuna görə insanlar əvvəlcədən özlərini ona hazırlayırlar: "Bu müddət ərzində böyük həvəslə, maraqla həmin günü gözləyirlər ki, dincəlsinlər, yarım qalmış işlərini həyata keçirsinlər. Amma bayramdan sonra yenidən işə qayıtmaq, yenidən bu qayğıları öz üzərlərinə almaq insanlara çətin gəlir. Ona görə də adaptasiya prosesi yavaş-yavaş gedir. Çalışmaq lazımdır ki, işə çıxmazdan bir gün əvvələ qədər tətili bitirsinlər, son bir günü digər günə hazırlıq prosesi olsun. Həm psixoloji, həm də fizioloji olaraq bəzən tətilin son gününə, saatına qədər də insanlar gəzməkdə olurlar. Getdikləri yerdən geri dönmürlər, yol yorğunu olurlar. Bu da psixoloji, fiziki yorğunluğu daha da artırır. Çalışmaq lazımdır ki, birdən-birə işə başlayanda çox da özlərinə güc gəlməsinlər. İstirahətə birdən-birə gediblərsə, birdən-birə işə gəlmələri yaxşı deyil. İstirahətdə insanlar dincəlir, amma işə qayıdandan sonra onlarda qəribə yorğunluq başlayır. İşə adaptasiya çətin olur, sürətlə alınmır. Bəziləri bunu gözləsələr də, bəziləri yorulur. Bir neçə gün yorulmaları normaldır. Amma çalışmaq lazımdır ki, bunu vərdişə çevirək. Yükümüzü yavaş-yavaş artıraraq işə adaptasiya ola bilərik".

***Söylü Ağazadə***


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Ərini baltalayan qadın məhkəmə zalında həbs edildi



***Bakıda ərini öldürməyə cəhddə təqsirləndirilən Lalə İmaşovanın cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. SİA xəbər verir ki, bu gün Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Novruz Kərimovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hökmə əsasən, Lalə İmaşova 9 il azadlıqdan məhrum edilib. İstintaq və məhkəmə dövründə polis nəzarətində olan qadın məhkəmə zalında həbs edilib.***

Xatırladaq ki, hadisə keçən il yanvarın 21-də paytaxtın Qaradağ rayonu, Qızıldaş qəsəbəsi ərazisində yerləşən evlərin birində qeydə alınıb. İttihama görə, Lalə İmaşova əri Ceyhun İmaşovla mübahisə edib. Daha sonra qadın baltanın kəsici hissəsi ilə ərinin baş nahiyəsinin arxa hissəsindən iki dəfə zərbə vurub. Nəticədə Ceyhun İmaşov ağır xəsarətlərlə xəstəxanaya yerləşdirilib.

L.İmaşova barəsində Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi ittiham elan olunub.



## ŞOK: Lerikdə 3 ailənin 11 üzvü qidadan zəhərlənib

Lerikdə zəhərlənmə ilə bağlı Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) açıqlama verib. TƏBİB-dən SİA-ya verilən məlumata görə, 27.03.2024-cü il tarixdə saat 06:00-da zəhərlənmə şübhəsi ilə bağlı 11 nəfər Lənkəran Rayon Mərkəzi Xəstəxanasının Təcili yardım şöbəsinə gətirilib.

Həmin şəxslərə zəruri ilkin tibbi xidmətlər göstərilib, analiz nümunələri götürülüb. Onlar vəziyyətlərinə uyğun olaraq ambulator müalicə üçün evə buraxılıblar.

## Bu gün 21 dərəcəyə qədər isti olacaq



***Bakıda və Abşeron yarımadasında martın 28-də hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, şimal küləyi əsəcək. Havanın temperaturu gecə 5-8° isti, gündüz 13-18° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 767 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 60-70 %, gündüz 45-55 % olacaq.***

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 4-8° isti, gündüz 16-21° isti, dağlarda gecə 2-7° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacaq.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3200**